www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 aprel 2015-ci il Çərşənbə № 79 (6107) Qiymәti 40 qəpik

**Xəbər**

## Üç nazirliyin ləğv ediləcəyi xəbəri yayıldı

yazısı səh.11-də

## “Əlibaba” filmi kimi, amma gerçək...

# NAZİR BUNKERİNDƏ MİLYARDLAR SAXLAYIR

Həmin bağ evinin içərisindəki otaq o qədər ideal və möhkəm konstruksiya ilə tikilib ki, nə yana, nə təbii fəlakətdə zədələnə bilər; İsveçrə banklarında gizli hesabların internetə sızması bankların da əslində etibarsız olduğunu üzə çıxarıb və...

yazısı səh.5-də

**Gündəm**

### Xoşqədəm Hidayətqızı hər şeyi danışdı



“Səni axtarıram” verilişinin müəllif hüququnun tanınmasını istəyən aparıcı Mehriban Əliyevaya müraciət etdi

yazısı səh.13-də

### Meriya Müsavatın yürüş keçirməsinə “yox” dedi

yazısı səh.8-də

### Razi Nurullayev “lider hər zaman haqlıdır” tezisinə qarşı

yazısı səh.5-də

*Azərbaycan diplomatı:*

### “NATO yüklərinin 40 faizi Azərbaycan ərazisindən keçir”

yazısı səh.6-da

### “A.M.A.Y. Abdulla”nın məhkəməsində lift söhbəti

yazısı səh.5-də

### “Ermənidən də pis” ittihamına müxalifətdən cavab gəldi

yazısı səh.7-də

### “Gəlir deklarasiyası haqqında” Qanunun tətbiqinə kimlər imkan vermir?

yazısı səh.12-də

### İqtidar bütün türmələrin qapısını beynəlxalq missiya üçün açır

yazısı səh.7-də

### AZAL-ın qiymətləri endirməməsinin sirri

yazısı səh.12-də

### Cavid Qurbanovun qardaşı da yüksək vəzifə aldı

yazısı səh.7-də

*Psixoloq:*

### “Cəmiyyətdə kütləvi psixopatlaşma gedir”

yazısı səh.15-də




## Saxta soyqırım Ermənistanın özünə qarşı yönəlir - şərh

24 apreldə Bakı və Ankaranın dost-düşmənləri bir daha dəqiqləşəcək, yeni situasiyada İrəvanın ciddi uduşu fiksiya kimi görünür; Bakı isə fürsətdən yararlanıb Minsk Qrupu həmsədrliyində təcili rotasiya tələb edə bilər

yazısı səh.9-da



### Parlamentdə Roma papası haqda sərt sözlər

yazısı səh.4-də



### Con Kerriyə Azərbaycan məmurlarına sanksiya tətbiqi çağırışı

yazısı səh.11-də



### ABŞ səfiri Azərbaycanın hərbi bazasında

yazısı səh.6-da



# Manat üzrə kreditlər bahalaşdı

**2015-ci ilin fevralında Azərbaycan bankları əvvəlki aylarla müqayisədə milli valyutada kreditlər üzrə faiz dərəcələrini artırıb, xarici valyutada isə azaldıblar.**

"Trend"-in Azərbaycan Mərkəzi Bankının (AMB) statistik hesabatına istinadən verdiyi məlumata görə, fevralın sonuna milli valyutada Azərbaycan iqtisadiyyatının bank kreditləşdirilməsi üzrə orta faiz dərəcəsi 14,15 faiz təşkil edib. Bu rəqəm 2014-cü ilin yanvarında 13,71 faizə, fevralda isə 14,47 faizə bərabər olub.

Sərbəst dönərli valyutada (SDV) bank kreditləşməsi üzrə orta dərəcə 13,08 faiz təşkil edib. 2014-cü ilin yanvarında bu göstərici 14,28, fevralında isə 14,32 faiz olub.

2015-ci ilin fevralında milli valyutada hüquqi şəxslərin bank kreditləşdirilməsi üzrə orta faiz dərəcəsi 9,78 faiz olub. Ötən ilin yanvarında və fevralında bu rəqəm müvafiq olaraq 9,74 və 11,46 faiz təşkil edib. SDV-də korporativ müştərilərin bank kreditləşdirilməsi üzrə orta faiz dərəcəsi 8,89 faiz olub. 2014-cü ilin yanvar və fevralında bu göstərici müvafiq olaraq 9,22 və 10,69 faiz təşkil edib.

2015-ci ilin fevralında milli valyutada fiziki şəxslərin bank kreditləşdirilməsi üzrə orta faiz dərəcəsi 18,65 faiz olub. Ötən ilin yanvarında bu göstərici 18,59 faiz, fevralında isə 18,21 faiz təşkil edib. SDV-də fərdi müştərilərin bank kreditləşdirilməsi üzrə orta faiz dərəcəsi 21,75 faiz olub. 2014-cü ilin yanvar və fevral aylarında bu rəqəm müvafiq olaraq 22,27 faiz və 20,38 faiz faiz təşkil edib.

# Statistika Komitəsi: "Azərbaycanda ərzaq malları bahalaşıb"

**2015-ci ilin mart ayında ərzaq məhsullarının qiymətləri 1,8 faiz, qeyri-ərzaq mallarının qiymətləri 0,5 faiz, əhaliyə göstərilən pullu xidmətlərin qiymət və tarifləri 0,1 faiz bahalaşıb, ümumilikdə istehlak mallarının qiymətləri və xidmət tarifləri əvvəlki ayla müqayisədə 0,9 faiz bahalaşıb.**



Modern.az xəbər verir ki, bu haqda Dövlət Statistika Komitəsi məlumat yayıb.

Ay ərzində toyuq ətinin, yumurtanın, göyərtinin qiymətlərində ucuzlaşma, buğda ununun, düyünün, qarabaşaq yarmasının, makaron məmulatlarının, mal və qoyun ətinin, kərə yağının, qarğıdalı və zeytun yağlarının, limonun, portağalın, naringinin, bananın, almanın, armudun, qozun, fındığın, şabalıdın, kələmin, xiyarın, pomidorun, kökün, çuğundurun, soğanın, sarımsağın, kartofun, spirtli içkilərin, tütün məmulatlarının qiymətlərində bahalaşma müşahidə olunub.

Mart ayında qeyri-ərzaq mallarından parçaların, geyim və ayaqqabıların, inşaat materiallarının, mebel və ev əşyalarının, məişət cihazlarının, kiçik elektrik cihazlarının, iri və kiçik alət və avadanlıqların, minik avtomobili və minik avtomobilləri üçün ehtiyyat hissələrinin, zərgərlik məmulatlarının qiymətləri bahalaşıb.

Ay ərzində əhaliyə göstərilən pullu xidmətlərdən MDB ölkələri üzrə hava və dəmiryolu sərnişindaşıma nəqliyyatı tariflərində ucuzlaşma, beynəlxalq reyslər üzrə hava sərnişindaşıma nəqliyyatı tariflərində isə bahalaşma müşahidə olunub.


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# DİN rəsmisi "Yeni Müsavat"da gedən yazıya reaksiya verdi

**"Yeni Müsavat" qəzetinin 13.04.2015-ci il tarixli sayında dərc olunmuş "Oğuz meşələrində at oynadan "üçlüyün" himayəçisi kimdir?" sərlövhəli yazıya Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidməti münasibət bildirib. Xidmətin şöbə müdiri Orxan Mansurzadənin redaksiyamıza göndərdiyi məktubda deyilir:**



"Yazıda Oğuzun Ərimənət kənd sakini Nazim Əbdürəhimovun nümayəndəsi Əbülfət Əhmədovun hüquqlarını qoruduğu şəxsi döyərək ona ağır bədən xəsarətləri yetirənlərin cəzasız qaldıqları, baş vermiş hadisənin hərtərəfli və obyektiv araşdırılmadığı barədə söylədikləri əsassızdır. Həqiqətən 17.11.2013-cü il tarixdə Oğuz rayon Ərimənət kənd sakini Nazim Əbdürəhimov DİN-in "102" Xidmətinə rayonun Xal-Xal kəndində Bayram, Vasif və Nazim adlı şəxslər tərəfindən döyülməsi barədə məlumat verib. Həmçinin o, RPŞ-yə ərizə ilə müraciət edərək həmin gün saat 20 radələrində yük avtomobili ilə yaşadığı evə odun gətirərkən meşə idarəsinin işçisi Bayram adlı şəxs tərəfindən idarə etdiyi avtomobilin saxlanıldığını, nəqliyyat vasitəsindən yerə salındığını, daha sonra adıçəkilən işçinin digər iki şəxslə birlikdə onu döydüyünü göstərib.

Aparılmış araşdırma zamanı Nazim Əbdürəhimovun Bayram Umarov, Vasif Mahmudov və Nazim Məmmədov tərəfindən döyülməsi xüsusatı sübuta yetməyib. Belə ki, məhkəmə-tibbi ekspertizasının rəyinə görə, N.Əbdürəhimovun bədənində aşkar edilmiş xəsarətlər sağlamlığa zərər vurmayan və dərəcəsi təyin edilməyən xəsarətlərdir. Bundan başqa, hadisənin şahidi olan bir neçə Xal-Xal kənd sakini izahatlarında həmin vaxt hər hansı dava-dalaşı, N.Əbdürəhimovun adları çəkilən şəxslər tərəfindən döyülməsini görmədiklərini vurğulayıblar...

Beləliklə, N.Əbdürəhimov sağlamlığa zərər vurmayan xəsarətlər aldığından və ərizəçinin şikayətçi olduğu 3 şəxsin cinayət xarakterli əməl törətməri müəyyənləşdirilmədiyindən müstəntiq tərəfindən yenidən cinayət işinin başlanmasının rədd edilməsi barədə müvafiq qərar qəbul edilib. Olayın üstündən təqribən ilyarım keçdikdən sonra heç bir əsas olmadan yenidən bu məsələnin üzərinə gedilməsi, müstəntiqin söylənilən işdə guya maraqlı olması və digər bu kimi əsassız iddialar aşkar qərəzdən, böhtandan, eyni zamanda şikayətçinin nümayəndəsinin hüquqlarını qoruduğu şəxsin ictimai rəydə zərərçəkən obrazını yaratmağa yönəlmiş cəhddən başqa bir şey deyil".

**Hazırladı: NURLAN**



## Çanaqqala tədbirlərində Rusiyanı Narışkin təmsil edəcək

**Aprelin 24-də Çanaqqala zəfərinin 100-cü ildönümü münasibətilə Türkiyədə keçiriləcək tədbirlərdə Rusiyanı kimin təmsil edəcəyi bəlli olub.**

APA-nın "Hürriyet"ə istinadən verdiyi xəbərə görə, Rusiyanı tədbirlərdə Dövlət Dumasının sədri Sergey Narışkin təmsil edəcək. Bunu S. Narışkinin özü dünən Moskvada Türkiyə Böyük Millət Məclisinin sədri Cəmil Çiçəklə görüşündə deyib: "Çanaqqala müharibəsinin 100-cü ildönümü ilə əlaqədar Türkiyəyə mən gələcəyəm. Bu səfərin Rusiya və Türkiyə arasındakı dostluğu möhkəmləndirəcəyini, bölgəmizdə sülh və sabitliyə töhfə verəcəyini düşünürəm".

Qeyd edək ki, aprelin 24-də Ermənistanda uydurma "soyqırım"ın 100 illiyinə həsr olunan rəsmi tədbirlər keçiriləcək. Həmin tədbirlərdə Rusiyanın prezident Vladimir Putin səviyyəsində təmsil olunması gözlənilir.

# Avropa Parlamenti qondarma "erməni soyqrımı"nı müzakirəyə çıxaracaq



**Avropa Parlamenti aprelin 15-də baş tutacaq plenar iclasda qondarma "erməni soyqrımı" məsələsini müzakirəyə çıxaracaq. APA-nın "News.am"a istinadən verdiyi xəbərə görə, "Erməni "soyqırımı"nın 100 illiyi" mövzusunda aparılacaq müzakirələr plenar iclasın 2-ci hissəsində baş tutacaq. Parlamentarların yekun qərar üçün müzakirə və səsvermə keçiriləcək.**

Qeyd edək ki, Avropa Parlamenti 2013-cü ilin insan hüquqları və demokratiya üzrə hesabatında Ermənistana dair maddələr qeyd olunan sənədi bu il martın 12-də qəbul edib. Sənəddə qondarma "erməni soyqırımının 100 illiyi" ərəfəsində Avropa Birliyinin bütün üzv dövlətləri erməni soyqırımını tanımağa çağırılır.

# Nemtsovun "qatili" yalan detektorundan keçməyə razılaşdı

**Rusiya müxalifətçisi Boris Nemtsovun qətlində ittiham edilən daxili qoşunların sabiq zabiti Zaur Dadayev yalan detektorunda yoxlamadan keçməyə razılaşıb. Publika.az "Kommersant" nəşrinə istinadən xəbər verir ki, Zaur Dadayev bununla da qətllə əlaqəsinin olmadığını sübut etmək niyyətindədir.**

Zaur Dadayevin vəkili Sakayev bildirib ki, müdafiə etdiyi şəxsin məlum cinayətlə əlaqəsinin olmadığı qənaətinə gəlib. Onun sözlərinə görə, poliqrafın (yalan dedektor) tətbiqi ilə ekspertizanın keçirilməsi Zaur Dadayevin son ifadələrinin etibarlılığını təsdiq edə bilər. Vəkil qeyd edib ki, təşəbbüsü həm də həqiqətin ortaya çıxmasında maraqlı olan zərərçəkən tərəfin nümayəndələri dəstəkləyir.

Qeyd edək ki, Rusiya müxalifət liderinin qətlində ittiham edilən Zaur Dadayev bir neçə dəfə ziddiyətli ifadələr verib. O, martın 12-də müxalifət liderini öldürdüyünü etiraf edib. Bunu onun vəkillərindən biri olan İvan Qerasimov da mətbuata açıqlamasında təsdiq edib.

Amma bundan əvvəl Dadayev və qətldə şübhəli bilinən daha iki nəfər cinayətdə iştiraklarını inkar ediblər. Şübhəli şəxslər işgəncə altında etirafedici ifadə verdiklərini iddia edirlər.

Xatırladaq ki, Boris Nemtsov fevralın 27-də Moskva vaxtı ilə 23:37-də öldürülüb. Qatillər Boris Nemtsova 6 güllə atıblar. Onlardan dördü hədəfə dəyib.

# İranın müdafiə naziri Azərbaycana səfər edəcək

**Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov İranın ölkəmizdəki səfiri Möhsün Pak Ayinlə görüşüb.**

APA-nın üdafiə Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, görüşdə müdafiə naziri Azərbaycanla İran arasında münasibətlərin inkişafında ölkə rəhbərlərinin görüşlərinin mühüm rol oynadığını və hərbi sahədə əlaqələrin uğurla davam etdiyini bildirib.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Z. Həsənov Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərdiyini diqqətə çatdırıb.

Səfir İranın Azərbaycanın ərazi bütövlüyünü və ədalətli mövqeyini dəstəklədiyini, işğal olunmuş ərazilərdə qondarma separatçı qurum tərəfindən təxribat məqsədilə keçirilməsi planlaşdırılan "seçkilər"in regionda sabitliyi pozmaq niyyəti ilə edildiyini və onun nəticələrinin ölkəsi tərəfindən heç bir halda tanınmayacağını bildirib.

Görüşdə həmçinin aprelin 20-21-də İranın müdafiə naziri, general-mayor Hüseyn Dehqanın Azərbaycana səfərinin detalları müzakirə edilib, keçiriləcək görüşlərdə hərbi əməkdaşlıq sahəsində baxılacaq məsələlərə dair fikir mübadiləsi aparılıb.

Görüşdə İran Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi, polkovnik Əmir Fərəci Moez iştirak edib.

# Sürücülərə xəbərdarlıq: bu küçə təmirə dayandı

**Bakıda iki əsas prospekti - Heydər Əliyev və Ziya Bünyadov prospektlərini birləşdirən Ələsgər Qayıbov küçəsinin əsaslı yenidənqurma işlərinə başlanılıb.**

"Qafqazinfo" xəbər verir ki, bu barədə "Azəryolservis" ASC-nin mətbuat katibi Pünhan Mürsəliyev deyib.

Onun sözlərinə görə, sovet dövründə köhnə texnologiya və normativlərlə inşa olunan həmin küçədə drenaj xətti olmadığı üçün yol örtüyünün səthində çoxsaylı göl-məçələr yaranırdı ki, bu da yol örtüyünün deformasiyası və dağılmasına səbəb olmuşdu, həmçinin avtomobillərin hərəkətinə manеə törədir.

P.Mürsəliyev bildirib ki, yolun əhəmiyyəti nəzərə alınaraq bu gündən yolda təmir işlərinə başlanılıb. İki gediş və iki gəlişdən ibarət küçə əsaslı şəkildə yenidən qurulacaq.

# Dövlət ittihamçısı İntiqam Əliyevə 10 il həbs cəzası istədi

## Hüquq müdafiəçisi ifadə verməkdən imtina etdi

**Aprelin 14-də Bakı Ağır Cinayətlər Məhkəməsində Hüquq Maarifçiliyi Cəmiyyətinin (HMC) sədri İntiqam Əliyevin növbəti məhkəməsi oldu. Proses sona doğru getdiyindən hüquq müdafiəçisinə dəstək olmaq üçün məhkəmədə çoxlu sayda insan iştirak edirdi.**

**Rasim Sadıqovun sədrliyi ilə keçən proses Beynəlxalq Bankın əməkdaşı Namiq Həsənovun ifadələri ilə başladı:** "Ödənişlərə imzanı ya müəssisə rəhbəri, ya da mühasib atır. Biz qeydiyyat aparırıq. İmza vərəqələrini tutuşdururuq. Hər hansı bir imza yoxlayan cihazımız yoxdur. Əgər imzalar uyğun deyilsə, qəbul etmirik. Onu da qeyd edim ki, bəzən imzaların hamısını yoxlamaq mümkün olmur. Aktiv olan imza vərəqələri ilə əsasən tutuşdurma aparırıq".

Daha sonra hər iki tərəfin iştirakı ilə imzalar yoxlanıldı. İntiqam Əliyevin imzası ilə ödənişlərdə olan imzalar tutuşduruldu. Ciddi fərqlər ortaya çıxdı.

**Müdafiə tərəfinin vəkili Şəhla Hümbətova eyni gündə iki ödəniş tapşırığının olduğunu qeyd etdi:** "Eyni gündə həm Əfsanə Orucovanın adına pul köçürülüb, həm də Sadiq Bağırov pul çıxarıb. İmzalar arasında araşdırma aparılmalıdır".

**Prosesin bu yerində hakimin bank əməkdaşına yönləndirici suallar verməsi təqsirləndirilən şəxsin etirazına səbəb oldu:** "Hörmətli hakim, siz ittiham tərəfinin vəkilisiniz? Nə üçün qanunsuz müdaxilə edirsiniz? Açıq-aşkar qərəzlisiz. Sizin sual vermək haqqınız yoxdur. Həqiqət müəyyən olunur, ona görə belə müdaxilələr edirsiniz".

İ.Əliyev şahidə plakatın üzərində olan iki imza göstərdi. Biri istintaqda adına olan imza, biri də iş əsnasında çəkdiyi imzalar. Şahid imzalar arasında ciddi fərqlərin olduğunu söylədi. Hakim hüquq müdafiəçisinin göstərdiyi imzaların sübut olmadığını söylədi. İ.Əliyev məhkəmədə yox, teatrda olduğunu bildirdi.

**Namiq Həsənov ifadəsinə belə yekun vurdu:** "Bir faktı qeyd edim ki, son 4 ildə hər ay bankdan mühasiblərə çıxarış vərəqələri verilib. Mühasiblər həmin vərəqələri rəhbərliyə çatdırırdılar. Sizə həmin çıxarış vərəqələrinin çatıb-çatmamasını deyə bilmərəm".

**Şahidin ifadəsindən sonra hakim təqsirləndirilən şəxsə ifadə verməsinin zamanının çatdığını bildirdi. İ.Əliyev ifadə verməsinin mənasız olduğunu qeyd etdi:** "Sübutlar olmadan ifadəm mümkün deyil. Ofis və mənzilimdən qanunsuz olaraq, götürülmüş əşyalar qaytarılmayıb. Həmin əşyaların içərisində kifayət qədər sübutlar var. İstintaq orqanı bunu bildiyinə görə sənədləri qaytarmır. Bu şəkildə necə ifadə verə bilərəm? Göndərdiyimiz sorğulara cavab gəlib. Amma qənaətbəxş deyil. Bütün bunlar vətəndaş cəmiyyətini təzyiq altında saxlamaq məqsədi güdür. Eyni zamanda ittihamların saxta olduğunu sübut edir. İndi cənab hakim, sorğulara göndərilən saxta məktublara inanıb, barəmdə hökm çıxaracaqsınız? 79 ödəniş tapşırığı var. Amma iş materiallarında 29 göstərilib. 50 ödəniş yoxdur. O barədə heç düşünmüsünüz? Bəlkə bir tədbir görəsiniz? Müsadirə olunan sənədləri verməkdən imtina edirlər. Göstərilən imzaların heç biri mənə məxsus deyil. İstintaq orqanı saxta imzalar atıb. Haqqımı müdafiə edirəm. Siz də vəzifənizi icra edib, sənədləri tələb edin. Bütün bunlar məhkəməyə də hörmətsizlikdir. Sübutlar olmadan nə deyə bilərəm? Ofisimə basqın olur, sənədlər torbalara doldurulub aparılır. Əsas sənədlər yoxdur. İstintaqa yalnız əhəmiyyət kəsb etməyən sənədlər təqdim olunub. İfadəm elə bunlardan ibarətdir. Təkrar söz deyib, insanları yormaq istəmirəm".



**Hakimin tez-tez hüquq müdafiəçisinin sözlərini kəsməsi onun etirazına səbəb oldu:** "Siz məni həbsə ata bilərsiniz, amma söz demək haqqımı əlimdən ala bilməzsiniz. Tez-tez üzümə gülürsünüz. Amma nəzərə almaq lazımdır ki, NİDA-çıların məhkəməsində də hakim gənclərə "oğlum" deyə müraciət edirdi. Sonda "oğulları"na 7-8 il iş kəsdi. Əvəz Zeynallıya xanım hakim "qardaşım" deyə müraciət edirdi. Sonda "qardaşı"na 9 il həbs cəzası verdi. Bu məhkəmənin də qərarı tutulduğum gündən hazırdır".

**HMC rəhbərinin çıxışından sonra sənədlərin tədqiqi mərhələsi başladı. İ.Əliyev sənədlərin hamısının elan olunmasının vaxt apardığını bildirdi:** "Vacib olan sənədlərlə yox, yalanlarla ittiham aktını tərtib ediblər. Bu baxımdan oxumağa ehtiyac yoxdur. Möhürümüz belə, bizdə deyil. İstənilən sənədə adımızdan möhür vurmusunuz".

Hakim ittiham və müdafiə tərəfinin istədiyi hissələri elan etdi.

**Təqsirləndirilən şəxs HMC-yə prezident seçilməyi ilə bağlı olan hissəyə münasibət bildirdi:** "İttihamlardan biri prezident seçilməyimlə bağlı olan hissədir. Deyirlər ki, guya vəzifəyə seçiləndə, xəbər verməmişəm. Absurd fikirdir. 1999-cu ildə prezident seçildiyim vaxt sənədləri təqdim etmişəm. İttihamlar əsassızdır. Ekspert rəy verib ki, mən və övladlarım agent olmuşuq. Hərəmiz bir ölkəyə işləmişik. Gülməli fikirlərdir. İlk günlərdən istintaqa çağırılanda ifadə verməkdən imtina etdim. Məndən ailəm və cəmiyyət barədə sorğu-sual apardılar. Qəflətən həbs olunacağım barədə xəbər çıxdı. Yəni bunlar ittihamın qurama, tapşırıq əsasında olduğunu sübut edir".

R.Sadıqov keçən iclasda zərərçəkmiş Sadiq Bağırovun xətşünaslıq ekspertizasının təyin olunması ilə bağlı vəsatət verdiyini elan etdi. Prokuror vəsatətin əleyhinə çıxış etdi. Müşavirəyə gedən məhkəmə heyəti vəsatəti rədd etdi.

Proses müdafiə tərəfin təqdim etdiyi, baxılmamış saxlanılan vəsatətlərə baxılma mərhələsi ilə davam etdi. Prokuror bütün vəsatətlərin əsassız olduğunu bildirən, uzun-uzadı çıxış etdi. Yenidən müşavirəyə yollanan məhkəmə heyəti vəsatətləri təmin etmədi.

Bununla da məhkəmə istintaqı tamamlandı.

**Müdafiə tərəfinin vəkili Şəhla Hümbətova donor təşkilatların göndərdikləri məktubları məhkəməyə təqdim etdi:** "İntiqam Əliyevə qarşı irəli sürülmüş ittihamların biri də mənimsəmədir. Donor təşkilatlar məktub göndərərək, heç nədən şikayətlərinin olmadığını bildirirlər. Hətta İntiqam müəllimə etibar etdiklərini nümayiş etdiriblər".

**Təqsirləndirilən şəxs də məktublarla bağlı çıxış etdi:** "Qanunda göstərilib ki, əmlak sahibinin şikayəti olmadan mənimsəmə ittihamı irəli sürülə bilməz. Demək, mənə qarşı irəli sürülən bu ittiham saxtadır. Bunu məktublar sübut edir. İstintaq orqanının qurduğu plandır".

**Məhkəmə prokurorun təqsirləndirilən şəxsə iş istəməsi mərhələsi ilə davam etdirildi:** "İstintaq hərəkətləri qanuni keçib. İttihamlar sübut olunub. İntiqam Əliyev təqsirli bilinməli və cəzalandırılmalıdır. Hökm oxunarkən, yüngül və ağır hallar nəzərə alınmalıdır. Təqsirləndirilən şəxs cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkməlidir. 5 ittiham maddəsi üzrə hökm oxunmalıdır. 3 maddədə əlavə cəzalar var. Bunlar nəzərə alınmalıdır. Ümumiyyətlə, bu maddələr üzrə işin toplanıb, Əliyev İntiqam Kamil oğlunun 10 il müddətinə azadlıqdan məhrum edilməsini məhkəmədən xahiş edirəm".

**Hakim prosesin 21 aprel saat 14:00-da müdafiə tərəfinin vəkillərinin çıxışları ilə davam edəcəyini elan etdi.**

❑ **Cavanşir ABBASLI**



# Bu gün Rəsul Cəfərova hökm oxunacaq

## Hüquq müdafiəçisinin məhkəməsində vəkillər çıxış etdilər




**Aprelin 14-də Bakı Ağır Cinayətlər Məhkəməsində İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun məhkəməsi davam etdi. Eldar İsmayılovun sədrliyi ilə keçən proses müdafiə tərəfinin vəkillərinin çıxışları ilə davam etdi.**

**İlk olaraq, Əlibaba Rzayev çıxış etdi:** "İlk növbədə qeyd edim ki, zərərçəkmişlər Nicat İmranlı və Əmrah Heybətov zərərçəkmiş statusundan imtina ilə bağlı məhkəməyə yazılı müraciət ediblər. Özləri prosesdə iştirak edirlər. Onların müraciətinə baxılsın. Ondan sonra çıxışıma davam edəcəyəm".

Zərərçəkmişlər ərizələrini təqdim etdilər. Bu zaman N.İmranlı və hakim arasında narazılıq yarandı. Zərərçəkmiş uca səslə, indiyə qədər dəfələrlə statusundan imtina ilə bağlı məhkəməyə müraciət etdiyini, lakin məhəl qoyulmadığını bildirdi. Onun uca səslə danışması hakimin etirazına səbəb oldu. E.İsmayılov ondan səs tonunu aşağı salmasını tələb etdi.

**Ardınca vəkil çıxışına davam etdi:** "Rəsul Cəfərova qarşı irəli sürülmüş 5 maddə üzrə heç bir sübut yoxdur. Bu, xüsusi sifarişdir. Azərbaycanda yüzlərlə QHT var. Fəaliyyət göstərmirlər. Amma milyonlarla pul alırlar. Ədliyyə Nazirliyi buna susur. Rəsul Cəfərovun fəaliyyəti əslinə qalsa, müsbət qiymətləndirilməli idi. Prosesdə ifadə verən şahid və zərərçəkmişlər onu müdafiə etdilər. Burada cinayət elementi axtarmaq tamamilə absurddur. Təşkilatın qeydiyyatı ilə bağlı müraciət olunub. Amma alınmayıb. Bununla belə, təşkilat qeydə alınmırsa, yenə fəaliyyət göstərə bilər. Rəsul Cəfərovun vəzifəsi yoxdur, necə bundan sui-istifadə edə bilər? Ağır cəza istənilməsi də ona qarşı olan qərəzdən xəbər verir. 9 il amansız cəzadır. Bu cür gəncləri susdurmaqla, həbsxanaya atmaqla heç nəyə nail olmaq mümkün deyil. Onun barəsində bəraət hökmü çıxarılmasını xahiş edirəm".

**Digər vəkil Fariz Namazlı da çıxış etdi:** "Açığı, hələ də ittihamlar bizə aydın deyil. Rəsul Cəfərovun özü təqsirsizliyini sübut etməyə borclu deyil. İstintaq orqanı obyektiv araşdırma aparmayıb. İstintaqda qərəz var. Sənədlər təqdim etmişik. Amma baxılmayıb. O zaman bu məhkəmə nəyə lazım? Bizim üçün 9 il qaranlıq qaldı. Rəsul Cəfərov hüququ işlə məşğul olub. Bir daha düşünün. Obyektiv qərar çıxarın. Bir ölkədə ədalət mühakiməsi yoxdursa, dövlətçiliyə inam ola bilməz. İnsanların bu inamını sarsıtmayın".

Vəkillərin çıxışından sonra hakim 5 dəqiqəlik fasilə elan etsə də, 1 saat çəkdi. Fasilədən qayıdan məhkəmə heyəti prosesin 15 aprel 10:30-a təxirə salındığını elan etdi. Məhkəmə Rəsul Cəfərovun son söz deməsi ilə başlayacaq. Ardınca hökm oxunacaq.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 79 (6107) 15 aprel 2015

**Aprelin 14-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirildi. İclasda bir sıra aktual məsələlərdən bəhs olundu, etirazlar səsləndi. Cari məsələlərlə bağlı çıxış edən deputat Siyavuş Novruzov Azərbaycanın adının korrupsiyalaşmış ölkələr sırasında çəkilməsinə etiraz etdi: "Avropa Oyunlarının yaxınlaşması ilə əlaqədar olaraq, daxili və xarici təşkilatların qərəzli mövqeyi ayrı-ayrı QHT-lər vasitəsilə Azərbaycana qarşı şantaj kampaniyası gedir.**



# Parlamentdə Roma papası haqda sərt sözlər

## "Min ildir ki, fitnə-fəsad Roma papasının başının altından çıxır"

Bu yaxınlarda korrupsiya ilə bağlı saxta bəyanat yayılıb. Azərbaycan az-az ölkələrdəndir ki, burada prezident və prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi fəaliyyət göstərir. Dünyanın hər yerində bu belə var və buna qarşı mübarizə gedir. Təəssüf ki, Azərbaycan xalqının əleyhinə işləyən siyasi partiya və QHT-lər var ki, Azərbaycanda kütləvi aksiyalara çağırır, bəyanatlar qəbul edirlər. Bütün bunlar onu göstərir ki, erməni lobbisinin və xaricdən aldıqları qrantların hesabına bu addımları atırlar. Milli Məclisdə bu hallara qarşı mübarizə aparmalı və bu antimilli qüvvələrin cavabını verməliyik".

Spiker isə deputatın çıxışına "Ehtiyac varmı bunun müzakirəsinə, bunlar ermənilərdən də pisdirlər", - deyə reaksiya verdi.

**Fazil Mustafa dedi ki, bu gün Azərbaycanda həmrəyliklə bağlı problem var:** "Nə qədər ki, bu kimi hadisələrə münasibətdə həmrəy ola bilməyəcəyik, problemlər həll olunmayacaq. Baxın, bugünlərdə biz Çanaqqala zəfərinin Bakıda qeyd olunması barədə təklif verdik, heç bir rəsmi reaksiya olmadı".

**Deputat Məhəmməd Əmin Rəsulzadənin büstünün depodan götürülməsinə də etiraz etdi:** "Biz artıq məmurlara demirik ki, Allaha bax, Konstitusiyaya, qanunlara əməl elə... Biz deyirik ki, heç olmasa, səni ora təyin edən prezidentin sərəncamına bax... Prezidentin sərəncamında bir bənddə də yazılmayıb ki, Rəsulzadənin büstünü yığışdırın. Son 15-16 ildə ölkənin 9 rayonunda Rəsulzadənin büstü və adı götürülüb. Gəncədə başına torba salınıb, universitetdən adı götürülüb. Biz tariximizə hörmət etmək istəyiriksə, bu kimi dəyərlərə toxunmamalıyıq. Prezident bir addımı atırsa, deməli, onu dəyərləndirir. Mən Rəsulzadənin büstünün götürülməsinə etirazımı bildirirəm və bu kimi addımların dayandırılmasını tələb edirəm".

**Fəzail Ağamalı dedi ki, Avropa Oyunları ərəfəsində həm Azərbaycandakı, həm də xaricdəki anti-Azərbaycan qüvvələr bir yerdə birləşiblər:** "Artıq Azərbaycandakı antimilli qüvvələr bəyanat verərək, idmanla bağlı qurumlara müraciət edərək, onları Azərbaycandakı yarışlarda iştirak etməməyə çağırırlar. Bunun adı xəyanətdir".

**F.Ağamalı Roma papasının saxta soyqırımla bağlı bəyanatına da etiraz etdi:** "Haqqa, ədalətə söykənməyi özünə borc bilən dini lider haqqı, ədaləti kənara qoyub, saxta soyqırımın yanında yer alır. Mən bir Azərbaycan vətəndaşı olaraq, Roma papasının mövqeyini qəti şəkildə pisləyirəm və onu haqqın yanında olmağa çağırıram".

**Vahid Əhmədov 21 fevralda Mərkəzi Bankın verdiyi qərara toxundu:** "Bu gün Mərkəzi Bankın ehtiyatlarının 15 milyarddan 9 milyarda enməsi ciddi təhlükədən xəbər verir. Belə getsə, ilin sonuna qədər ehtiyat qalmayacaq. Mən Mərkəzi Bankın siyasətini başa düşə bilmirəm. Mərkəzi Bank öz məzənnə siyasətini tamamilə dəyişməlidir. Elə etməlidir ki, bankın ehtiyatları qorunub-saxlansın".

**V.Əhmədov dərman preparatlarının qiyməti ilə bağlı ölkə prezidentinin dediklərini xatırlatdı:** "Biz burada qanun qəbul etdik ki, dərman preparatlarının qiyməti tənzimlənsin. Üç ay keçməsinə baxmayaraq, biz hökumətin qərarını ala bilməmişik. Bu sahədə ciddi problemlər var".

**Məlahət İbrahimqızı Azərbaycana qarşı korrupsiya ilə bağlı bəyanatları Azərbaycana düşmənçilik mövqeyi hesab etdi:** "Həmin hesabatda Avropa Birliyinə daxil olan ölkələrdə tibbi sığorta ilə bağlı külli miqdarda korrupsiya faktlarının olması da əksini tapıb. Amma nədənsə, bu antimilli qüvvələr öz ölkələrinə qarşı xəyanət mövqeyində dayanırlar. Ancaq bu gün Avropa qəzetlərində Mehriban xanımın rəhbərlik etdiyi bu işlər geniş işıqlandırılır".

**M.İbrahimqızı da Roma papasına etiraz etdi:** "100 il bundan qabaq arxivin küncündə toz basmış məsələyə diqqət verən Roma Papasının Xocalı soyqırımına münasibət bildirməməsi ən azı qınaqyıcıdır, təəssüfedicidir".

**Sahib Alıyev dedi ki, papanın sülh arzusunu dilə gətirməsi inandırıcı görünmür:** "Özü də saxta soyqırım ayinində Xocalı soyqırımının iştirakçısı, əli azərbaycanlıların qanına batmış Sərkisyan və Balayan başda əyləşdirilmişdi".

**Zahid Oruc dedi ki, nə qədər ki, Türkiyə ilə düşmənçiliyi körükləyəcək qərarlar veriləcək, bu, ermənilərin xeyrinə olmayacaq:** "Ermənilərin nefti və qazı olmasa da, iki mühüm silahları var. Uydurublar ki, xristianlığın beşiyi oradır və soyqırım silahından yararlanırlar".

**Z.Oruc buna cavab olaraq, Roma papasına məktub yazmaqdansa, 24 apreldə Azərbaycan gənclərinin Şəhidlər Xiyabanını ziyarət etməsini, bir din adamının katolik kilsəsinin qarşısına gül qoymasını təklif etdi:** "Katolik kilsəsinin rəhbərinin qərarı ermənilərə ən böyük zərbədir".

**Deputat İqbal Ağazadə də** dedi ki, Rəsulzadəyə bu cür münasibət bəsləyənlər ən azı prezidentin sərəncamına əməl etməlidirlər.

**ora layiq olmadığını göstərdi:** "Min ildir ki, fitnə-fəsad Roma papasının başının altından çıxır. Argentina əsillidir, bu adam və orada da ermənilər at oynadırlar. O vaxt Türkiyədə 1,2 milyon erməni yaşayırdı, amma bu adam iddia edir 1,5 milyon erməni öldürülüb. Bəs ermənilər öldürüldüsə, onda dünyada yaşayan bu ermənilər hardan törəyib? Ən azı ədalətli, vicdanlı adam Ermənistana "işğaldan əl çək" deməli, sonra barışa çağırmalıdır. Biz bir bayrağını senaqoqda asmışıq, nə lazımdırsa, biz kömək etməyə hazırıq. Bəzi adamlar var ki, kor gözləri ilə bu gözəllikləri görmürlər. Bu inkişafı görməmək baxa-baxa kor olmaqdır".

**Spiker O.Əsədov da fikirlərini bölüşdü:** "Biz iqtidarlı-müxalifətli milli məsələlərdə birləşməyi bacarmırıq. Mən hələ ermənilərdə görməmişəm ki, hansısa milli məsələlərdə bir-birinin ziddinə getsinlər. Avropa Oyunlarına qarşı çıxmaq Azərbaycana qarşı çıxmaqdır".

**O.Əsədov dedi ki, Vatikanda səfərdə olan zaman erməni katolikosunun heykəlini görüb:** "Səbəbini soruşdum, dedilər ki, bu da bizim kardinalıdır. Biz onlardan niyə inciməliyik? Bu məsələni tarixçilər araşdırmalıdır. Təəssüf ki, Roma papası belə mövqe sərgiləyir. Ancaq ona məktub yazmağın mənası yoxdur".

**Daha sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı.**

"Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron yarımadası ətrafında dayazsulu sahənin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP Eksploreyşn (Azərbaycan) Limited və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinin müzakirəsində maraqlı çıxışlar oldu.

**Milli Məclis sədrinin müavini Valeh Ələsgərov sazişin mahiyyətindən danışarkən bildirdi ki, Azərbaycan neft sahəsində bütün riskləri nəzərə alıb:** "Bu baxımdan, bp şirkəti böyük təcrübəyə və texnikaya malik olduğuna görə Xəzər dənizinin Abşeron yarımadası ətrafında da yazsulu sahənin kəşfiyyatı, işlənməsi və hasilatı ona həvalə olunur. Bununla bağlı nəzərdə tutulan bütün maliyyə hesabları da həmin şirkətin öhdəliyinə buraxılır. Bütün proses Dövlət Neft Şirkətinin nəzarəti və Azərbaycanın milli maraqlarının qorunması şəraitində aparılacaq".

**Deputat Sabir Rüstəmxanlı məsələ ilə bağlı tənqidi fikirlərini söylədi:** "Dənizdən neft çıxarmaq çətindir. Məhz buna görə xarici mütəxəssislərin köməyindən istifadə olunur. Ancaq biz sahilə yaxın hissələrdən özümüz neft çıxara bilərik. Sahilə yaxın yerlərdən axı niyə şərikinə neft çıxarırıq? Buna nə ehtiyac var? Bu müddətdə neft istehsalı ilə bağlı təcrübəmizi artıra bilərdik. Əgər bu addım siyasi proseslərlə əlaqəlidirsə, o zaman bunu təhlil etmək lazımdır. Bilirsiniz, bizim çörəyimiz dizimizin üstündədir. Bizim xeyir verdiklərimiz sonradan gedib Ermənistanın yanında durur. Azərbaycan mədənlərinin ağzını açıb sərvətlərini Avropa ölkələri ilə bölüşürük. Ölkənin təbii ehtiyatları tükənməz deyil və bu fakt diqqətdə saxlanılmalıdır. Xahiş edirəm, mənim bu narahatlığımı nəzərə alasınız".

**Deputat Azay Quliyev da tənqidi fikirlərini çatdırdı:** "Şirvan şəhərində fəaliyyət göstərən bir sıra şirkətlər, məsələn, "Şirvan Oil" işçi və işəgötürən münasibətlərində çox böyük nöqsanlara yol verir. Onlar ayrı-seçkilik edir, qeyri-şəffaf prosedurlarla işçiləri işdən çıxarırlar. Bu barədə çoxlu sayda müraciətlər daxil olmaqdadır".

Bundan sonra layihə səsə qoyularaq qəbul olundu.

**Daha sonra Hesablama Palatasının 2014-cü il üzrə illik hesabatının dinlənildi. Palatanın sədri Vüqar Gülməmmədov çıxışında qeyd etdi ki, 2014-cü ildə aparılan audit tədbirləri zamanı qanunun tələbləri gözlənilmədən 294 mln. manat vəsaitin satınalma proseduru keçirilmədən xərc olunduğu müəyyən edilib:** "Hər bir nəzarət obyektində rast gəlinən ikinci nöqsan vəsaitlərin təyinatı üzrə istifadə olunmamasıdır. Bu kimi tədbirlərlə yanaşı, 323,5 ştat vahidinin və 11 qrupun ləğvi təmin olunub. Ümumilikdə, bu ştat vahidləri və qrupların ləğv edilməsi ilə orta hesabla il ərzində 1,9 mln. manat əlavə vəsaitin istifadəsinin qarşısı alınıb".

**Müzakirələr zamanı çıxış edən deputat Vahid Əhmədov bildirdi ki, Hesablama Palatası ilk dəfədir bu cür uğurlu hesabat verir:** "Mən Vüqar Gülməmmədovu təbrik edirəm. Ancaq iki təklifim var. Göstəricilər verilərkən MDB ölkələri ilə bağlı deyil, bizim iqtisadi tərəfdaşlarımız olan Avropa ölkələri ilə müqayisəli şəkildə göstərilsin. Digər təklifim vəzifəli şəxslərin tənbeh edilməsi ilə bağlıdır. Daha çox aşağı vəzifəli şəxslər tənbeh olunur. Təklif edirəm ki, qanunvericilik dəyişdirilsin və yüksək vəzifəlilər də tənbeh edilsinlər". Qısamüddətli müzakirədən sonra hesabat qəbul edildi.

"Qiymətli kağızlar haqqında" Qanuna dəyişikliklərin edilməsi barədə qanun layihəsi barədə İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi.

**Deputat Əli Məsimli dedi ki, banklarda faizlər kəllə-çarxa çıxdığı bir vaxtda Mərkəzi Banka belə bir statusun verilməsi düzgün deyil:** "Devalvasiyadan sonra faizlərin daha da artacağı deyilir. Status verilərsə, əhalinin əmlakları bankların əlinə keçəcək. Bu isə sosial partlayışa səbəb olacaq. Bunun qarşısında dayanmaq mümkün deyil. Bu cür maddələrdən uzaq durmaq lazımdır".

**Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi.**

## Deputatlar Məhəmməd Əmin Rəsulzadənin büstünün dağıdılmasına etiraz etdi

**İqbal Ağazadə ötən həftə Xətai rayonunda baş verən yanğında mənzillərin və insanların külli miqdarda zərər çəkdiyini xatırladıb, binaları süni və zərərli materiallarla üzləyənlərə etiraz etdi:** "Bakı şəhərinin rəhbərliyi nəhayət, insan həyatı üçün təhlükəli olan bu materiallarla binaların üzlənməsini dayandırmalıdır. Kim icazə verib, bu cür zəhərli materialların binaların üzərinə çəkilməsinə..? Gözəllik insan üçündür. Amma insanı zəhərləyən materialları kim bura gətirib? Nobel prospekti boyu binaları üzləyiblər. O yanğına baxanda adam dəhşətə gəlir ki, bir dəqiqə ərzində birinci mərtəbədən 9-cu mərtəbəyədək alov bürüdü. Bu, gecəyarısı olsaydı, nə baş verərdi? Xahid edirəm, bu tipli materialları gətirib, Bakını gözəlləşdirmək adı ilə binalara hörənlərə "dur" deyilsin. Sabah bir təxribat nəticəsində bu hadisə bütün digər binalara da keçə bilər".

**Sabir Rüstəmxanlı dedi ki, ən yaxşı cavab özümüzün iş görməyimizdir:** "Ermənilər yox yerdən abidə qurub və gəlib-gedən onu ziyarət edir. Niyə Azərbaycanda bir normal soyqırım muzeyi, abidəsi olmasın?"

**S.Rüstəmxanlı dedi ki, Roma papasının davranışı onun** məktubla öz etirazımızı bildirməli və Türkiyənin yanında olduğumuzu nümayiş etdirməliyik".

**Azay Quliyev müdafiə naziri Zakir Həsənovun fəaliyyətini təqdir etdi:** "Amma narahatedici fakt budur ki, Suriya və Livandan muzdlular Ermənistan ordusuna cəlb edilir. Ən azı ATƏT-in Minsk Qrupunun həmsədrləri işğal olunmuş Azərbaycan ərazilərində Suriya və Livan ermənilərinin yerləşdirilməsinə siyasi qiymət verməlidir".

**Xalq artisti Zeynəb Xanlarova da söz aldı:** "40-ı çıxmış Papanın haqqında danışmağa dəyməz. Bu adamın yan-yörəsi bizə qarşı düşmənlərdən ibarətdir. Papanın başı yerində olsa, onlara qulaq asmaz, öz başı ilə iş görər. Mən Amerikadan təzə gəlmişəm. Bir ay ərzində orada hətta sadə insanlarla görüşlərim oldu. Hətta Nyu-York şəhərinin meri də konsertimə gəldi. Azərbaycan haqqında məhəbbətlə danışırdı. Deyir, "Az qalıram, ailəmlə Azərbaycana köçüm. Hər gedib-gələndə Azərbaycanda yeni gözəlliklər görürəm".

**Z.Xanlarova Amerika yəhudilərinin Azərbaycan prezidentinə ünvanlı sözlərini də çatdırdı:** "Dedilər ki, biz Azərbaycanı o qədər çox sevirik ki, Azərbaycan

**❑ Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 79 (6107) 15 aprel 2015

# "Əlibaba" filmi kimi, amma gerçək...

**Bəllidir ki, Azərbaycanın məmur-oliqarxları öz pullarını bir neçə istiqamətdə yatırıma yönəldirlər. Varlı məmurlar kapitalının bir hissəsini ölkə iqtisadiyyatına yönəltməyə, eləcə də Bakıda və Azərbaycanın başqa yerlərində, habelə bir sıra xarici ölkələrdə daşınmaz əmlak almağa xərcləyir, qalanını isə xarici banklarda və ya qiymətli kağızlarda saxlamağa üstünlük verirlər.**



# Nazir bunkerində milyardlar saxlayır

## Həmin bağ evinin içərisindəki otaq o qədər ideal və möhkəm konstruksiya ilə tikilib ki, nə yana, nə təbii fəlakətdə zədələnə bilər; İsveçrədə dünyanın ən böyük ikinci bankında gizli hesabların internetə sızması bankların da əslində etibarsız olduğunu üzə çıxarıb...

Amma bir neçə il əvvəl dünyadakı böyük iqtisadi böhran Azərbaycan məmurlarının hətta transmilli şirkətlərə yatırdıqları investisiyanı "vurdu" və onlar ciddi maliyyə ziyanına düşdülər. Xəbərlərə görə, məhz bundan sonra daha çox məmur paralarını banklarda "yatırmağa" qərar verdi. Bu, biznes maraqları baxımından əlverişsiz olsa da, daha təhlükəsiz seçim hesab olunurdu.

Amma bu ilin fevralında İsveçrədə dünyanın ən böyük ikinci bankında - HSBC-də gizli hesabların internetə sızması bankların da əslində etibarsız olduğunu üzə çıxardı. Məlum olmuşdu ki, Azərbaycandan da 21 nəfər müştərinin ümumi bank hesabı təxminən 3,8 milyon dollar təşkil edib. Həmin şəxslər arasında ən çox pul hesabı isə 1,6 milyon dollara sahib müştəridir. Amma kimdir, nə işin sahibidir, bunlar bilinmədi.

Əslində İsveçrə bankında üzə çıxan gizli hesabdakı məbləğ Azərbaycanın bəzi məmur-oliqarxları üçün "tum pulu" hesab oluna bilər. Heç kimə sirr deyil ki, iqtidarda uzun müddətdir vəzifə tutan şəxslərin bəziləri təkcə Bakıda və ya ölkənin səfalı guşələrində tikdirdikləri yay villalarına içinin mebelləri ilə birgə milyonlarla dollar xərcləyirlər. Elələri var ki, qarajlarında üst-üstə dəyəri milyonlar edən avtomobillər saxlayırlar.

Azərbaycan iqtidarı "şişmiş məmurların" pullarına nəzarət etmək üçün ötən ilin iyununda "Banklar haqqında" Qanuna dəyişiklik etməli oldu. Həmin dəyişikliyə əsasən, Azərbaycan məmurları *(və ya sadə vətəndaş)* xarici banka pul yatırırsa, bu halda mütləq Azərbaycanın dövlət orqanlarını məlumatlandırmalı, məbləğə uyğun vergiyə cəlb edilməlidir. Bu, artıq məmurları külli miqdarda pullarını saxlamaq üçün daha başqa planlar qurmağa sövq edəcək.

Redaksiyamıza daxil olan məlumata görə, Azərbaycanda bir nazir uzun müddətdir ki, pullarını, yəqin ki, həm də digər qiymətli əşyaları *(məsələn, antikvarlar, qızıl, daş-qaşlar, yumurta boyda brilyantlar)* xaricdən gətirdiyi, yalnız özünün bildiyi xüsusi bir firmanın tikdiyi otaqda saxlayır. Mənbənin dedikləri var-dövlətini bir sirli mağarada saxlayan məşhur hind filmini xatırlatsa da, israr edir ki, bu bir gerçəkdir. **"Həmin bağ evinin içərisindəki otaq o qədər ideal və möhkəm konstruksiya ilə tikilib ki, nə yana, nə təbii fəlakətdə zədələnə bilər. Yəni bir bunker. Ən müasir texnologiya ilə qorunması da təşkil edilib. Bankı yara bilərlər, o otağı isə yox"** deyə, qaynaq bildirib. Onun kimliyinə gəlincə, mənbə bu adın çəkiləcəyinin nə dərəcədə riskli olduğunu söyləyib və təbii ki, ad çəkmək istəməyib. Yalnız onu deyib ki, o məmur, onun var-dövləti haqda mətbuat çox yazır... Üstəlik o, elə sahəyə rəhbərlik edir ki, dövlət büdcəsindən ən çox maliyyə vəsaiti həmin sahəyə ayrılır. O da təmir, əsaslı təmir adı ilə onlardan daha çox faydalana və onları rahat mənimsəyə bilir.

**❑ "Yeni Müsavat"**



Razi Nurullayev

# Razi Nurullayev "lider hər zaman haqlıdır" tezisinə qarşı

## Əli Kərimlinin sabiq müavini hərəkat yaratdı

**İki ay öncə AXCP-dəki sədr müavini vəzifəsindən və partiya üzvlüyündən istefa verən politoloq Razi Nurullayev yeni demokratik hərəkat yaratdığını bəyan edib. Bu barədə sosial şəbəkədəki səhifəsində yazan R.Nurullayev qeyd edib ki, hərəkat müxalifətyönümlü demokratik təsisat olacaq. R.Nurullayev qeyd edib ki, Azərbaycan cəmiyyətində, eləcə də bütün dünyada klassik siyasət get-gedə nüfuzunu itirməkdədir. Hazırda klassik siyasət demokratiyanın imitasiyasına çevrilib və özünü doğrultmamaqdadır. Klassik siyasətə baxışda dünyada baş verən tənəzzül Azərbaycanda daha dərin izlər buraxıb. Xalqla siyasətçilər arasında dərin uçurum yaranıb.**

İnsanların böyük bir qisminin siyasətə marağı ölüb: "Bir çoxları isə onu haqlı olaraq fərdi siyasətçilərin maraqlarına xidmət edən bir institut kimi görməyə başlayıb. Siyasi qüvvələr gün-gündən sosial bazasını itirir, xalqın dəstəyindən məhrum olur. Bu səbəbdən siyasətə yeni yanaşmanın ortaya qoyulmasına və xalqın inamının bərpa edilməsinə ehtiyac var. Xalq və seçici özünü kənardan seyrçi yox, taleyini müəyyən edən proseslərin iştirakçısı kimi görməlidir.

Cəmiyyətin yeni demokratiyaya ehtiyacı vardır. İmitasiya olunmayan, demokratik ənənələrin formalaşdığı siyasi qüvvə xalq tərəfindən dəstəklənəcək və cəmiyyətdə öz yerini tutacaq. Azərbaycanda müasir və sivil, azad cəmiyyətin formalaşması üçün Yeni Demokratiya Hərəkatını yaratdığımızı bəyan edirik. Yeni Demokratiya Hərəkatı üçün Azərbaycanın müstəqilliyi və ərazi bütünlüyü toxunulmaz, azad və demokratik cəmiyyətin qurulması missiyadır. Azərbaycanın gələcəyini Avropa ailəsinə tam inteqrasiyada görürük".

**R.Nurullayev bəyan edib ki, Yeni Demokratiya Hərəkatı hazırkı iqtidara müxalifətdə olacaq və ölkənin demokratikləşməsi üçün bütün səylərini səfərbər edəcək:** "Yeni Demokratiya Hərəkatı gənclərin və klassik siyasətin əsas düsturuna çevrilən "lider hər zaman haqlıdır" tezisini büt kimi qəbul etməyən, həmfikirlərin birgə qurduğu və azad, demokratik cəmiyyət uğrunda dönmədən mübarizə aparanların təşkilatı olacaq. Bəyan edirik ki, siyasi strategiyanı təkcə siyasətçilər formalaşdırmamalıdır. Siyasi strategiyanı siyasi qüvvənin arxasında duran xalq, onun üzvləri, tərəfdarları, sosial bazası müəyyən etməlidir. Siyasi təşkilatın və siyasətçinin üzərinə düşən vəzifə bu strategiyanın taktikaya çevrilməsi, xalqın iradəsinin hakimiyyətə daşınmasıdır. Yeni demokratiya - imitasiya olunmayan demokratiyadır".

R.Nurullayev sonda vurğulayıb ki, Yeni Demokratiya Hərəkatı açıq müzakirələr vasitəsilə xalqın iradəsinə söykənən qərarların verilməsi ilə müxalifətin yeni imicini formalaşdırmaq üçün də çalışacaq. Yeni demokratiya mövcud və klassik siyasətin inikası deyil, aynası olacaq.

**❑ E.SEYİDAĞA**

# "A.M.A.Y. Abdulla"nın məhkəməsində lift söhbəti

## "Bilmədiyiniz şeyi danışmayın"

**Aprelin 14-də Bakı Ağır Cinayətlər Məhkəməsində "A.M.A.Y." ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayevin, habelə Heydər Rzayev, Mehman Məmmədxanlı, Elşən Novruzov, Vidadi Qurbanov və Nadejda İlyasovanın barəsində olan cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə zərərçəkən qismində Elçin Əliyev, Eldar Cəfərov və Akif Əhmədov ifadə veriblər.

**Elçin Əliyev** "Xudafərin" MMC-dən mənzil aldığını, oranı təmir etdiyini və təqsirləndirilən şəxsdən heç bir şikayətinin olmadığını bildirib.(virtualaz.org)



Abdulla Abdullayev

**Eldar Cəfərov da şikayətinin olmadığını bildirsə də indiyə qədər mənzilin tam təhvil verilmədiyini söyləyib:** "Bizim tələbimiz odur ki, mənzilimiz təhvil verilsin. 2005-ci ildə ora köçməli idim, amma 10 ildir köçə bilmirəm. Binanın komplektləşdirilməsini istəyirik. Mənzilimiz tam təmir olunmadığına görə bir dəfə Binəqədi, bir dəfə də Nərimanov rayon məhkəmələrinə şikayət etmişik. Binada kanalizasiya xətti quraşdırılmayıb, lift işləmir".

**Abdulla Abdullayev zərərçəkənin düz danışmadığını deyərək ona sərt şəkildə irad bildirdi:** "2 il əvvəl orada 8 blokda lift qoyulub. Həmin liftlərə yük vurub qaldırıblar. Deyirsiniz işıq yoxdur, bilmədiyiniz şeyi danışmayın. Oranın işığı da var, kanalizasiya xətti də. Korrupsiya İdarəsi işə başladı, bizim iş dayandı. Bu adamlar nisyə söhbət danışır. Mən Azərbaycandan 2012-ci ilin noyabrında getmişəm. Liftləri qoyan şəxsin də pulu tam ödənilib. Özüm gedib binaya baxmışam. Əgər məsləhətdirsə, adam ayırın, gedib baxsınlar. Ümumiyyətlə, "Xudafərin" işinə burada niyə baxılır - başa düşmürəm".

Proses aprelin 16-na kimi təxirə salınıb.

Qeyd edək ki, təqsirləndirilən şəxslərdən yalnız A.Abdullayev barəsində həbs-qətimkan tədbiri seçilib, digər şəxslər zamindədirlər.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

İstintaq müəyyən edib ki, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaiti təyinatı üzrə istifadə etməyib.

İstintaqın gəldiyi qənaətə görə, vəsaiti ayrı-ayrı hüquqi şəxslərin müvəkkil bank olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürülməklə həmin vəsaiti faktiki rəhbəri olduğu "A.M.A.Y" MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə xərcləyib. Özgənin külli miqdarda əmlakını mənimsəməsində şübhələr üçün ciddi əsaslar olduğundan A.Abdullayevə Cinayət Məcəlləsinin qeyd olunan maddələri üzrə ittiham elan edilib.



# Vatikanın iç üzü

Azər RƏŞİDOĞLU

**Roma papasının "erməni soyqırımı" barədə dediklərində təəccüblü nə var ki? Bu, həmişə belə olub. 1915-ci il hadisələri zamanı Papa XV Benedikt Türkiyə sultanına məktub yazaraq, ondan israrla "ermənilərə qarşı təzyiqlərə son qoymağı" tələb edirdi. Məsələnin mahiyyətinə belə varmırdı ki, ermənilərin imperiyanın mərkəzinə köçürülməsinin əsasında nə dayanır. Əslində bu araşdırma katolik mərkəz kimi Vatikana lazım da deyildi. Məqsəd müsəlman imperiyasını çökdürmək idi - pravoslav Rusiyanın əli ilə olsa belə...**

Vatikan hər zaman ədalətsizliyin yanında olub.

Holokost zamanı da, inkvizisiyalar zamanı da, səlib yürüşləri zamanı da. Katolik kilsəsi daima zorun simvoluna çevrilib. Təkcə bir fakta nəzər edək - 13-19-cu əsrlərdə katolik kilsəsində "kafir"lərə qarşı mübarizə orqanı olan inkvizisiya məhkəməsi yüz minlərlə insana fiziki işgəncə verirdi. Adətən "kafirlər"i tonqalda yandırırdı.

Roma kilsəsi hətta Həzrət İsanın özünə qarşı da yəqin ki, belə sərtlik nümayiş etdirə bilərdi.

Mixail Dostayevski də bunu yazırdı.

"... mən bircə dəfə işarə edən kimi bu itaətkar sürü bizə mane olmağa gəldiyin üçün səni (İsa peyğəmbəri - A.R.) yandıracağım tonqala qaynar közü kürüyüb tökməyə başlayacaq. Çünki bizim tonqalımıza hamıdan çox layiq olan bir kəs varsa, o da sənsən. Sabah səni yandıracağam. Belə də olsun..."

Roma papası hətta Həzrət İsanı yandırmağa və onu öz hökmranlığına qurban verməyə hazır olub. Əsərdə gözəl təsvir edilir -böyük inkvizitor Həzrət İsanı belə yandırmaq istəyir. Bu bir məcaz olsa da, Dostayevski İsanı İsanın adı ilə tonqala göndərən katolik kilsəni ifşa edir. Yandırılan Həzrət İsanın bədəni olmasa da, ideyaları olur. Roma papası öz əli ilə İsa peyğəmbərin fikir və düşüncəsinə od vurur.

Həzrət İsanın adı ilə... Allah elçisinin adı ilə tarix boyunca nə qədər başlar kəsilib. İsanın adı ilə nə sayda insanlar diri-diri tonqallarda yandırılıb. Soyqırımları həyata keçirilib. Və bütün bunların arxasında Vatikan və Roma papası dayanıb.

Vatikan daima dini və iqri savaşların qızışdırıcısı rolunda çıxış edib. Tarixə nəzər salaq - 1618-1648-ci illəri əhatə etmiş 30 illik müharibənin baş verməsinin əsas siması Roma papası olub.

18 avqust 1572-ci ildə keçirilmiş möhtəşəm toy mərasimi və qugenotların kral əyanlarının arasında olması katolikləri daha da qəzəbləndirib. Hadisələr sürətlə inkişaf edib, 22 avqustda admiral Kolinyiyə qarşı sui-qəsd təşkil olunub. Fanatik katolik və böyük nüfuz sahibi hersoq Henrix de Giz həmin əməliyyatın rəhbəri olub. Protestant zadəganları kraldan hersoqun cəzalandırılmasını tələb etmişdilər. Yeni müharibənin başlamasından ehtiyat edən qugenotlar Parisi tərk etməyə başlamışdılar.

Bu planın həyata keçirilməsi üçün Müqəddəs Varfolomey günü, yəni 1572-ci il avqustun 24-ü seçildi. O gün şəhər qapıları bağlandı və hərbi dəstələr hazır vəziyyətə gətirildi. Gecə sui-qəsdçilər yaralı admiralın otağına daxil olaraq, onu və mühafizəsini qılıncdan keçirib, sonra isə kilsə zənglərinin işarəsi ilə şəhər əhalisi protestantları qətlə yetirməyə səslənildi. Parisdə başlanmış bu qırğın, Roma papasının xeyir-duası ilə ölkənin digər şəhərlərinə də yayıldı.

Azğınlaşmış əhali protestantların əvvəlcədən təbaşirlə işarələnmiş evlərinə girərək onları eyvandan küçəyə atıb, qadınlara təcavüz edib, soyğunçuluqla məşğul oldular. Qadın-uşaq demədən hər kəsi öldürdülər, təkcə protestantlar deyil, hətta katolisizmə məxsus olmayan digər din nümayəndələrinə də mərhəmət edilmədi.

Roma papasının katolik zülmünə qarşı Yan Qusun (1371-1415) başçılığı altında hərəkat başlandı.

O, katolik ruhanilərini tənqid edir və Roma papasının vəzifələri pulla satmasını lənətləyirdi.

Yan Qus katolik kilsəsinin torpaqlarının əlindən alınmasını və kəndlilərə paylanmasını, kilsənin çex kralına tabe olmasını tələb edir, çex xalqını ölkəni yadelli əsarətindən azad etməyə, Roma papası və almanlara qarşı mübarizəyə çağırırdı. Praqa şəhərinin baş yepiskopu Qusdan kilsəyə qarşı təbliğatı dayandırmağı tələb etdi.

Qus onun tələbinə məhəl qoymadı və Roma papası onu kilsə məclisinə dəvət etdi. İmperator Yan Qusa toxunulmazlıq fərmanı verdi. Yan Qus Almaniyanın cənubundakı Konstans şəhərində çağırıldı və kilsə məclisinə gəldi. Onu tutub 6 ay həbsxanada saxladılar, kafir elan etdilər və 1415-ci ildə tonqalda yandırdılar.

Bax budur Vatikanın iç üzü...

# "NATO yüklərinin 40 faizi Azərbaycan ərazisindən keçir"

## Azərbaycan səfiri ABŞ-dan narazıdır

**"Biz Qərbin İranla nüvə danışıqlarını alqışlayırıq və hesab edirik ki, bu, regionda gərginliyin azalmasına səbəb olacaq". APA-nın məlumatına görə, bu sözləri Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov "The Daily Signal" saytına müsahibəsində deyib.**

Səfirin sözlərinə görə, Azərbaycan İranın qonşusu kimi regionda münasibətlərin normallaşmasında maraqlıdır: "Biz regionu qeyri-sabit görmək, daha bir hərbi fəaliyyətin şahidi olmaq istəmirik. İran regionun aparıcı ölkələrindən biridir, İranda baş verən hər bir hadisə bizə və regiona təsir edir. Regionda yaşayan bizlərik. Həmçinin unutmayaq ki, İranda çoxsaylı etnik azərbaycanlılar yaşayır".

**İranı nüvə silahı yaratmaqdan çəkindirmək yollarından danışan E. Süleymanov bildirib ki, diplomatiyaya alternativ görmür:** "İstənilən hərbi fəaliyyət prosesə cəlb olunan bütün tərəflər üçün zərərli ola bilər, regionda xaos yaranar".

**Səfir bildirib ki, Azərbaycan ABŞ-la terrorçuluğa qarşı mübarizə sahəsində tərəfdaşlıq edir:** "Biz güclü tərəfdaşıq. Regionda hazırda ən vacib məsələ uzunmüddətli öhdəliklər və ələqələrdir. Biz Əfqanıstan prosesinə cəlb olunmuş bir neçə ölkədən biriyik. Əfqanıstanda qüvvələrimiz var. Biz orada müxtəlif sahələrdə treninqlər keçiririk. NATO yüklərinin 40 faizi Azərbaycan ərazisindən keçir. Azərbaycan öz öhdəliklərini yerinə yetirib. Biz uzun illər ABŞ-ın güclü dəstəyini hiss etmişik. Lakin son illər bu ölkənin regiondan bir qədər uzaqlaşması müşahidə olunur. Əgər sizin regiona güclü strateji yanaşmanız varsa və ABŞ kimi super ölkə bunu edə bilərsə, onda müşahidə olunan neqativ hallar baş verməz".

**Ukraynada baş verənlərə toxunan E. Süleymanov bildirib ki, bu ölkənin ərazi bütövlüyünün pozulması postsovet məkanında ilk hal deyil:** "1991-ci ildə Azərbaycanın qonşusu olan Ermənistan ərazi bütövlüyümüzü pozub. Əgər ABŞ ərazi bütövlüyü və suverenlik məsələsində tam, birmənalı və güclü mövqe nümayiş etdirməsə, bu kimi hadisələr təkrarlanacaq. ABŞ Ukraynanın ərazi bütövlüyü pozulduğu üçün Rusiyaya sanksiya tətbiq etmək barədə danışıqlar aparır, lakin eyni səbəb üzündən Ermənistana sanksiya tətbiq etməyib. Amerikalılar faktiki olaraq Ermənistanı müdafiə edirlər. Ermənistan ABŞ-dan ən çox yardım alan ölkələrdən biridir. Hiss olunur ki, mənim ölkəmin ərazi bütövlüyünə başqa ölkənin ərazi bütövlüyündən daha az əhəmiyyətli yanaşılır. Gəlin hər kəsə bərabər yanaşaq".



Elin Süleymanov

# ABŞ səfiri Azərbaycanın hərbi bazasında...





**ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta aprelin 14-də Azərbaycan Hərbi Hava Qüvvələrinin Kürdəmirdə yerləşən bazasında olub.**

Səfirlikdən oxu.az-a verilən məlumata görə, Sekuta bazada Müdafiə Nazirliyinin pilotları və mütəxəssisləri ilə görüşüb.

Bazanın komandiri ilə birlikdə o, uçuş simulyatorunda öz pilot bacarığını yoxlayıb və pilot kabinəsindən Su-25 qırıcı-bombardmançısı barədə məlumat alıb.

# BMT "erməni soyqırımı"nı tanımır

## Pan Gi Munun rəsmi nümayəndəsi bəyanatla çıxış etdi

**BMT-nin baş katibi Pan Gi Mun Osmanlı İmperiyasında ermənilərin sıxışdırılmasını "dəhşətli cinayət" hesab etsə də, "soyqırım" terminindən istifadə etməyə tələsmir və ölkələri 100 il əvvəl baş vermiş hadisələrin faktlarını müəyyənləşdirmək məqsədilə əməkdaşlığı davam etdirməyə çağırır.**

Oxu.az xəbər verir ki, bu barədə jurnalistlərə bazar ertəsi BMT baş katibinin rəsmi nümayəndəsi Stefan Cüarrik bildirib.

Onun sözlərinə görə, ümumdünya təşkilatının katibliyində ötən bazar 1915-1916-cı illərdə ermənilərin kütləvi qətli və sıxışdırılmasını "XX əsrin ilk soyqırımı" adlandırmış Roma papası Fransiskin fikirlərini nəzərə alıblar.

Cüarrik qeyd edib ki, Pan Gi Mun "aprelin 24-də Ermənistanda və digər ölkələrdə 1915-ci ilin faciəli hadisələrinin 100 illiyinin qeyd olunacağını yaxşı xatırlayır", bununla belə, "baş vermiş hadisənin təsnifatlaşdırılması ilə bağlı məsələnin həssaslığını da dərk edir".

"Baş katib əmindir ki, bu tarixin qeyd edilməsi, 1915-ci ilin faciəli hadisələrinin yad edilməsi, həmçinin baş verənlər ətrafında faktların müəyyənləşdirilməsi məqsədilə əməkdaşlığın davam etdirilməsi bizim gələcəkdə belə hadisələrin təkrarlanmamasına yönəlmiş ümumi səylərimizi möhkəmləndirməlidir", - baş katibin rəsmi nümayəndəsi bildirib.



Pan Gi Mun

Xatırladaq ki, Roma papasının Vatikanda Müqəddəs Pyotr kilsəsində, erməni prezidenti Serj Sərkisyanın iştirak etdiyi mərasimdəki bəyanatı Türkiyədə kəskin reaksiyaya səbəb olub.



# Hillari Klinton İrəvana gəlir?

**ABŞ-ın keçmiş dövlət katibi və 2016-cı il prezindent seçkilərinə namizədliyini rəsmən elan edən Hillari Klintonun Ermənistana səfəri gözlənilir.**

"Qafqazinfo" Ermənistan KİV-nə istinadən xəbər verir ki, "erməni soyqırımı"nın 100 illiyinə həsr olunacaq mərasimlərdə iştirak etmək üçün xanım Klintonun aprelin 23-24-ü İrəvana səfər planlaşdırdığı qeyd edilir.

"Mediamaks" ABŞ Konqresindəki mənbəsinə istinadən xəbər verir ki, Hillari Klinton hələ ki yekun qərarını verməyib.

Hillari Klinton dövlət katibi olarkən 2009-cu ildə məşhur Ermənistan-Türkiyə protokollarının hazırlanmasında və imzalanmasında fəal rol oynamışdı.

# Rusiya generalı və qırıcıları Ermənistandakı paradda

**Ermənistan paytaxtında yerləşdirilən Erebuni Rusiya aviabazasının təyyarəçiləri Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinə həsr edilmiş paradda iştirak edəcəklər.**

Oxu.az xəbər verir ki, bu barədə TASS-a Cənub Hərbi Dairəsinin mətbuat xidmətindən bildiriblər.

"Dördüncü nəsil müasir cəbhə qırıcıları Miq-29 ilk dəfə hərbi qayda ilə İrəvanın Qələbə parkı üzərindən uçacaq. Bununla yanaşı, 200 Rusiya hərbçisi şəhərin mərkəzində təntənəli yürüş edəcək", - əyalətdən bildiriblər.

Bundan başqa, Gümrü şəhərində 800-dən çox hərbçi və 200-ə yaxın hərbi texnika Qələbənin yubileyinə həsr edilmiş paradda iştirak edəcək.

Gümrü və İrəvanda hərbi texnika kolonlarının, qırıcıların uçuşları ilə paradların məşqləri 5 və 7 mayda Ermənistanda yerləşən Rusiya hərbi bazasının komandiri, general-mayor Vladimir Ustinovun başçılığı altında keçəcək.

Qeyd edək ki, Ermənistanın özünün qırıcı aviasiyası yoxdur.





# Əli Həsənov İsrail jurnalistləri ilə görüşdü

## "Azərbaycanla İsrail arasındakı münasibətlər strateji tərəfdaşlıq mahiyyəti kəsb edir"

**Aprelin 14-də Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov İsrail kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşüb.**

AzərTAc xəbər verir ki, Əli Həsənov israilli jurnalistlərə Azərbaycanın ictimai-siyasi, mədəni həyatında baş verən mühüm hadisələr, ölkəmizin daxili və xarici siyasəti, beynəlxalq aləmdə qazandığı uğurlar, Azərbaycan-İsrail əlaqələri haqqında məlumat verib.

Prezidentin köməkçisi bildirib ki, Azərbaycanla İsrail arasındakı münasibətlər strateji tərəfdaşlıq mahiyyəti kəsb edir və bu münasibətlərə uyğun olaraq İsrailin həm dövlət qurumları, həm də qeyri-hökumət təşkilatları, o cümlədən KİV-ləri isə əlaqələr yaradılır.

Əli Həsənov Azərbaycanda yaşayan yəhudi icmasının və İsraildəki Azərbaycan icmasının ölkələrimiz arasında əlaqələrin inkişafında böyük rol oynadığını söyləyib.

Diqqətə çatdırılıb ki, Azərbaycanda yəhudilər əsrlər boyu sülh, dostluq, qarşılıqlı etimad şəraitində yaşayıblar. Ölkəmizdə dövlət hesabına sinaqoqlar tikilir, təmir edilir. Azərbaycan dünyanın çox az ölkələrindən biridir ki, dövlət vətəndaşlar üçün dini, ictimai, mədəni, sosial obyektlər tikir və onların istifadəsinə verir. Azərbaycanda bütün dinlərin nümayəndələrinə böyük hörmət var və tolerantlıq mühiti dərin köklər atıb.

Əli Həsənov əminliklə bildirib ki, İsraildən gələn KİV nümayəndələri ölkəmizin hər yerində yüksək qonaqpərvərliyin şahidi olacaqlar.

Sonra prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov jurnalistlərin suallarını cavablandırıb.

Görüşdə iştirak edən "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının baş direktoru Lev Spivak ölkəmizdə yəhudi icması üçün yaradılan şəraitdən məmnunluğunu bildirib, rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə müxtəlif nəşrləri Əli Həsənova təqdim edib.

# İqtidar türmələrin qapısını beynəlxalq missiya üçün açır

## İşgəncələrə Qarşı Komitənin nümayəndələri yenidən Azərbaycana gəlir

**İşgəncələrin Qarşısının Alınması üzrə BMTAlt Komitəsinin nümayəndə heyəti aprelin 16-24 -də Azərbaycanda səfərdə olacaq. Bundan öncə 2014-cü ilin sentyabrında Bakıya gələn bu missiya hakimiyyətin onunla əməkdaşlıq etməməsi səbəbindən vəzifəsini yerinə yetirməyərək Azərbaycanı tərk etməli olmuşdu. Bu barədə təşkilatın məlumatında deyilir.**

Nümayəndə heyətinin rəhbəri Ayşə Şujun Muhamməd qeyd edib ki, istənilən azadlıqdan məhrumetmə yerlərinə məhdudiyyətsiz giriş üçün şəraitin yaradılacağına dair Azərbaycan hökumətindən zəmanət alıblar.

2014-cü ilin sentyabrında azadlıqdan məhrumetmə yerlərinin bir neçəsinə daxil olmanın, digərlərində isə vəzifələrin tam yerinə yetirilməsinin qarşısının alınması səbəbindən onlar səfəri dayandıraraq ölkəni tərk etmişdilər.

9 günlük missiya zamanı nümayəndə heyəti azadlıqdan məhrumetmə yerlərinə baş çəkəcək, Azərbaycan rəsmiləri və digər əlaqədar tərəflərlə görüşlər keçirəcək.

Səfərdən sonra nümayəndə heyəti azadlıqdan məhrum edilmiş şəxslərə qarşı işgəncə və pis rəftarın qarşısının alınması ilə bağlı müşahidə və tövsiyələrindən ibarət məxfi hesabatını Azərbaycan hökumətinə təqdim edəcək.

Nümayəndə heyətinə Ayşə Şujun Muhamməd, Miloş Yankoviç, Margret Osterfeld və Viktor Zaharia daxildir.

❑ **"Turan"**

# "Ermənidən də pis" ittihamına müxalifətdən cavab gəldi

## "YAP və beşinci kalon müxalifətlə iqtidar arasındakı dialoqun əleyhinədir"

**Milli Məclisin sədri Oqtay Əsədov parlamentin son iclasında Avropa Oyunları əleyhinə çıxış edən müxalifət partiyalarının ünvanına ciddi ittihamlar səsləndirib, onların "ermənidən də pis" olduğunu iddia edib.**

Maraqlıdır, iqtidar-müxalifət arasında siyasi dialoq məsələsinin aktuallıq kəsb etdiyi, ümummilli problemlərin həlli üçün həmrəyliyin zəruri olduğu bir zamanda müxalifətin ünvanına bu cür ittihamların səsləndirilməsi nə dərəcədə doğrudur?

**Moderator.az-a açıqlama verən Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** hakimiyyət daxilindəki bəzi qüvvələrin müxalifətlə hakimiyyət arasında münasibətlərin yumşalmasında maraqlı olmadığını bildirib: "Azərbaycan hakimiyyəti daxilindəki bəzi qüvvələr və YAP müxalifətlə iqtidar arasındakı siyasi dialoqun əleyhinədir. Hər vəchlə bu münasibətləri gərginləşdirmək istəyirlər. Eyni zamanda hakimiyyət daxilindəki 5-ci kalon da bu dialoqun əleyhinədir. Hansı ki, onlar Rusiyaya işləyirlər. Buna görə də onlar hər zaman müxalifətlə hakimiyyət arasındakı münasibətlərin gərinləşməsində, Qərblə, ABŞ-la, beynəlxalq təşkilatlarla hakimiyyət arasındakı münasibətlərin kəskinləşməsində maraqlıdırlar. Bu məqsədlə də süni gərginlik yaradırlar. Bu gün bu dialoqun baş tutmaması və müxalifətlə hakimiyyət nümayəndələri


Oqtay Əsədov

arasında keçirilən görüşlərin heç bir nəticə verməməsinin də səbəbi budur".

# Cavid Qurbanovun qardaşı da yüksək vəsifə aldı

## İlqar Qurbanov Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinə rəis təyin olundu

**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinə rəhbər təyinatı həyata keçirilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən lent.az-a verilən məlumata görə, əmək və əhalinin sosial müdafiəsi nazirinin əmrinə əsasən, İlqar Qəmbər oğlu Qurbanov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinə rəis təyin olunub.**

İlqar Qurbanov əmək fəaliyyətinə 1981-ci ildə başlayıb. Həmin vaxtdan etibarən Musa Nağıyev adına 1 saylı klinik xəstəxanada, Təcili Tibbi Yardım Klinik Xəstəxanasında, Respublika Gigiyena və Epidemiologiya Mərkəzində, Bakı Sağlamlıq Mərkəzində, Həmkarlar İttifaqı Respublika Komitəsində, habelə ədliyyə sistemində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində *(2007-2010-cu illərdə Respublika Əlillərin Reabilitasiya Mərkəzində baş həkim müavini)* və digər qurumlarda həkim kimi müxtəlif vəzifələrdə işləyib.

İ.Qurbanov 2014-cü ilin yanvarından hazırkı vəzifəsinə qədər ƏƏSMN-in Respublika Əlillərin Bərpa Mərkəzinin baş həkimi vəzifəsində çalışıb.



Xatırladaq ki, ƏƏSMN yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti Azərbaycan Prezidentinin 16 mart 2015-ci il tarixli Fərmanına əsasən yaradılıb. Xidmətin yaradılmasında məqsəd əhaliyə göstərilən tibbi-sosial ekspertiza və reabilitasiya xidmətinin təkmilləşdirilməsi, əlilliyin müəyyən olunması və tibbi-sosial reabilitasiya sahəsində idarəetmə mexanizminin çevik və səmərəli təşkilinin təmin olunmasıdır. Yeni xidmət özünün Mərkəzi Aparatından, 38 TSEK-dən, 11 əlillərin bərpa mərkəzindən və Bakı Protez Ortopedik Mərkəzi və onun Gəncə filialından ibarət olacaq.

Qeyd edək ki, İlqar Qurbanov "Azərbaycan Dəmir Yolları" SC-nin sədri, millət vəkili Cavid Qurbanovun qardaşıdır.




# "Bakı 2015"in Brüsseldə də təqdimatı oldu

## İki fərqli paytaxtda keçirilən mərasimlərin siyasi əhəmiyyəti də varmı?

**Bir neçə gün öncə Moskvada "Bakı 2015" Avropa Oyunlarının təqdimat mərasimi keçirildi. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə keçirilən təqdimat mərasimində Rusiya siyasi elitasının 350-dən çox görkəmli nümayəndəsi, mədəniyyət və incəsənət xadimləri, idmançılar iştirak edib. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu virtualaz.org-a bu barədə müsahibəsində deyib ki, iştirak edən adamlar böyük siyasi çəkiyə və şəxsi nüfuza malik şəxslər idi: "Dövlət Dumasının sədri Sergey Narışkin, onun müavini, Rusiya Olimpiya Komitəsinin prezidenti Aleksandr Jukov, baş nazirin müavinləri, Rusiya prezidentinin müşavirləri, federal və regional hakimiyyət orqanlarının nümayəndələri, tanınmış rektorlar, görkəmli mətbuat nümayəndələri o tədbirə qatılmışdı. Əlbəttə, Rusiya elitasının tədbirə bunca böyük maraq göstərməsi ilk növbədə Mehriban xanımın şəxsiyyəti ilə bağlıdır. Birinci ledinin heç kimdə mübahisə doğurmayan və onun bütün fəaliyyətinə sirayət edən şəxsi nüfuzu, insaniyyəti, yüksək humanizmi bütün postsovet məkanında və ondan da kənarda hörmət və rəğbət doğurur".**

14-də isə Belçikanın paytaxtı Brüsseldə "Bakı 2015" Avropa Oyunlarının təqdimat mərasimi keçirilib. Mərasimində gənclər və idman naziri Azad Rəhimov, Beynəlxalq Olimpiya Komitəsinin eks-prezidenti Jacques Rogge, Belçika Olimpiya Komitəsinin prezidenti Pierre-Olivier Beckers və Avropa Parlamentinin vitse-prezidenti iştirak ediblər.

Təqdimat mərasimi çərçivəsində "Bakı 2015" Avropa Oyunlarına hazırlıqla bağlı videoçarx və fotosərgi nümayiş olunub. Aprelin 15-də isə Avropa Oyunlarının təqdimat mərasimi Avropa parlamentində baş tutacaq. Mərasimdə nazir Azad Rəhimov, Azərbaycanın Belçikadakı səfiri Fuad İsgəndərov, Avropa Parlamentinin bir sıra üzvləri və digər rəsmi şəxslər iştirak edəcək.

Təqdimat mərasimində "Bakı 2015"-lə yanaşı, Azərbaycan və Avropa Parlamenti arasında əlaqələrin möhkəmləndirilməsi, gənclər sahəsində yeni layihələrin işlənilməsi, müxtəlif sahələrdə əldə edilmiş razılıqlar əsasında yeniliklərin əldə olunması və digər mövzular müzakirə olunacaq.

**Deputat Zahid Oruc "Bakı 2015" Avropa Oyunlarının təqdimat mərasimlərinin Rusiya və Avropa Birliyinin mərkəzi olan Brüsseldə keçirilməsinin əhəmiyyəti, mədəniyyət və idman tədbirlərinin siyasətə də təsirləri barədə "Yeni Müsavat"ın suallarına maraqlı cavab verib. Z.Oruc bildirdi ki, şübhəsiz ki, belə böyük idman tədbirləri üzərində və mədəni hadisələrin birgələşdirilməsi yolunda Avropa arxitekturası formalaşıb. Yəni yalnız siyasi qərarlar, hüquqi aktlarla, yaxud da iqtisadi münasibətlərlə müxtəlif birliklər, təşkilatlar, əlaqələr formalaşmır. Keçmiş tarixdə də, indinin özündəki gerçəklikdə də, hətta türk dünyasının arasındakı münasibətləri yaxınlaşdırmaq üçün ən müxtəlif xarakterli tədbirlər keçirilib, keçirilir:** "Ona görə də "Bakı 2015" Avropa Oyunlarının, eləcə də onun təqdimat mərasimlərinin Azərbaycanın siyasi maraqlarına, onun əlaqələrinin qurulmasına, investisiya axınına, xarici dövlətlərlə münasibətlərin daha sıx zəmində qurulmasına xidmət edəcəyi şübhəsizdir. Bu gün Azərbaycanın Rusiyada, Belçikada, sabah başqa məkanlardakı təqdimatları ilə informasiya müstəvisində olmağını gücləndirən addımları bəzi dairələri narahat edir. Ona görə də Azərbaycana qarşı hücumlar geniş vüsət almaqdadır.

Sovet dövründə belə bir yanaşma var idi ki, sanki biz onların neft ambarı idik. Bundan kənar münasibəti bu gün də Azərbaycana layiq görməyənlər var. Avropa Oyunları kimi tədbirlər, təqdimat mərasimləri Azərbaycanın dünya çapında müasir dövlət olaraq təqdimatıdır, tanınmasıdır".

❑ **Etibar SEYİDAĞA**



# Stadion quruluşlu dövlət

Zamin HACI
zaminhaci@gmail.com

**İmişlidən Səyyad bəy adlı oxucumuz zəng vurub deyir: "Telekanalizasiyada eybəcər uşaqların doğulması haqda süjetə baxdım. Aparıcı deyirdi ki, bu cür uşaqların doğulması ölkəmizə geni dəyişdirilmiş məhsulların gətirilməsi ilə bağlıdır. Bəs gətirilməsi qanunla qadağan edilən bu məhsullar Azərbaycana necə keçir? Sərhəd, gömrük xidmətləri hara baxır? Məncə, son vaxtlar müdafiə naziri Zakir müəllim yaxşı işləyir, qoy sərhəddən alma-armud keçirilməsinə nəzarət də ona tapşırılsın, millət də rahat yeməyini yesin".**

Doğrudan da, Zakir müəllimin sayəsində son aylar rahat yatırıq, hətta bəziləri yorğansız yatır, çünki arxayınçılıqdır. Bu adam ordudan babat kliplər çəkdirib "damdaradam" musiqilərin müşayiəti altında millətdə ruh yüksəkliyi qayırmağın bütün çağdaş üsullarına kamil şəkildə yiyələnmişdir. Vallah, hərdən görürsən Zakir müəllim hansısa tankın tırtılını təpikləyib sonra əzmkarlıqla əsgərlərlə çörək yeyir, adam iştaha gəlir, az qalırsan təzədən durub gedəsən əsgərliyə. Orduya penoplast üzlük, bəzəkli hasar çəkməyin ustasıdır. Bizə ayrı nə lazımdır ki? Ordu quruculuğu elə bu cür olur. Yaxşı yadımdadır, sinif yoldaşım Firudin Hacıyev 1992-ci ildə Qarabağda bir yüksəkliyin alınmasında iştirak etmişdi, ondan soruşmuşdum əməliyyat necə olub, demişdi: "Səhər hücum əmri verildi, səngərimizdən qalxan kimi ermənilər güllə yağdırdı, hamı istədi qaçsın, tabor komandiri gəldi, ayağımızın altından bir daraq güllə buraxdı, dedi qabağa getməyən filan-filan olsun. Pis söydü. Bir az getdik, yenə düşmən atdı, biz geri qaçanda yenə komandir söyüş qoydu. Beləcə, söyə-söyə bizi yüksəkliyə qaldırdı, ermənilər də qaçdılar". İndi Zakir müəllim də qısa müddətdə maraqlı kliplərlə Qarabağın yarısını azad etmişdir. Biz çox sevinirik, sevinməyən ermənidir!

Sözümün canı odur ki, şair demişkən, "Bizdən qabaqdadır avropalılar, İşi iş bilənə tapşırır onlar". Biz gərək Avropa Oyunlarını keçirməyi, təşkilat komitəsinin sədrliyini də Zakir müəllimə tapşıraq. Qeyd elədiyim kimi, adları da oxşayır - AO, yəni istəsən bunu Avropa Oyunları oxu, istəsən Azərbaycan Ordusu. Bu arada Roma papasına dərin nifrətimi bəyan etməyi borc bilirəm. Heydər Əliyev Fondunun Vatikanın remontuna ayırdığı pul da haram xoşları olsun. Ümid edirəm o remont bizim pullar sərf edilən başqa remontlar kimi başdansovdu, yeyinti ilə aparılıb və tezliklə Vatikanın penoplast üzlükləri də Xətaidəki yetimlərin evi kimi od tutub yanar, ilahi, amin! Müsəlmanın ahı yaman şeydir.

Məmləkətdə Avropa Oyunlarına hazırlıq səviyyəsi isə günü-gündən artır. Tez-tez belə xəbərlər oxuyuruq: "Qaradağ rayonu Avropa Oyunlarına hazırlaşır", "Yasamalda Avropa Oyunları münasibəti ilə əhaliyə qaz verilmişdir", "Kürdəmir Avropa Oyunlarında Mingəçevirə avar çəkməyə gedəcək idmançılar üçün yol qırağında dinc abadlıq işləri aparır" və sairə. Yeri gəlmişkən, İlhamiz adlı bir oxucu var, hər gün məktub yazıb soruşur ki, Avropa Oyunları nə deməkdir, bəyəm Afrika, Avstraliya, Amerika oyunları da varmı? Rəsmən məni terror edir, o üzdən cavab verirəm: bəli, İlhamiz bəy, var. Hər materikin oyunları var, inşallah, gələn il də Avstraliya oyunlarını almışıq, hamımız kenquru kimi hoppanacağıq. 2017-ci ildə İslam Oyunlarını, 2018-ci ildə isə Buşmen Oyunlarını almışıq. Qəmişini məndən çək.

Mən uca millətimizin bu oyunlara şiddətli marağını nəzərə alıb dövlət quruluşumuzda dəyişiklik edilməsinin tərəfdarıyam. Örnək üçün, konstitusiyamızda belə yazıla bilər: "Azərbaycan stadion quruluşlu, oyuncaq monarxiya hakimiyyətli turnirist dövlətdir. Dövlət rəhbərliyi turnirlər yolu ilə müəyyənləşir, ən çox turnikdə çəkilən adam respublikanın baş məşqçisi seçilir. Baş məşqçi komandanı (keçmiş əhali) yarışlara uyğun rejimdə saxlamağa borcludur. Hər 5 ildən bir ən yaxşı əl çalan, bağıran azarkeşlərdən 125 nəfərlik deputatxana qayırılır".

İndi söz əlaqədar turnir iştirakçılarınındır.

**Prezident İlham Əliyev aprelin 14-də Serbiyanın baş naziri Aleksandr Vuçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Serbiyanın baş naziri Aleksandr Vuçiç ölkəsinin Azərbaycanla əlaqələri siyasi sahədəki kimi, iqtisadi sahədə də genişləndirməkdə maraqlı olduğunu deyib. Azərbaycanla Serbiya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunun vurğulandığı görüşdə bu istiqamətdə müxtəlif layihələrin uğurla həyata keçirildiyi bildirilib.**



# Prezident Serbiyanın baş naziri və Tatarıstan rəhbəri ilə görüşdü

## Görüşlərdə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub

Ölkələrimiz arasında mövcud olan möhkəm siyasi əlaqələrin və qarşılıqlı anlaşmanın ikitərəfli əlaqələrin genişləndirilməsi işinə töhfə verdiyi qeyd olunub. Görüşdə həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə toxunularaq münaqişələrin beynəlxalq hüquq normalarına uyğun şəkildə və ərazi bütövlüyü çərçivəsində həll olunmasında ölkələrimizin mövqeyinin üst-üstə düşdüyü vurğulanıb.



Rüstəm Minnixanov



Aleksandr Vuçiçin

İlham Əliyev elə həmin gün həmçinin Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Azərbaycanla Rusiya Federasiyası və onun subyektləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev Rüstəm Minnixanovun böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin bu münasibətlərin daha da genişləndirilməsi baxımından önəmini qeyd edib.

Dövlət başçısı əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən ticarət, sərmayə qoyuluşu, birgə layihələrin icrası və digər sahələrdə genişləndirilməsi üçün yaxşı imkanların olduğunu deyib.

Rüstəm Minnixanov Azərbaycanda yaşayan tatar icması ilə keçirdiyi görüş zamanı icma üzvlərinin ölkəmizdə bərqərar olmuş tolerant mühitin onların firavan yaşamaları üçün hər cür şəraitin yaratdığını bildirdiklərini söyləyib.

Görüşdə maşınqayırma, neft maşınqayırması, Gəncədə avtomobilyığma, neft-kimya, informasiya texnologiyaları, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Abdulla Gül Azərbaycana gələcək

**Türkiyənin 11-ci prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Abdulla Gül III Qlobal Açıq Cəmiyyətlər Forumunda iştirak etmək üçün Azərbaycana gələcək.**

Diasporla İş üzrə Dövlət Komitəsindən lent.az-a verilən məlumata görə, forumda Abdulla Gülün "Yeni dünya düzəninin başlıca problemləri" mövsuzunda məruzə ilə çıxışı nəzərdə tutulub. 2014-cü ildən mərkəzə üzv olan Abdulla Gül Azərbaycanda dünyanın nüfuzlu ictimai-siyasi liderlərinin birləşdiyi belə bir beynəlxalq əhəmiyyətli təşkilatın fəaliyyətini və həyata keçirdiyi layihələri yüksək qiymətləndirir. A.Gülün fikrincə, bu, təkcə Azərbaycanın deyil, eyni zamanda bütün türk dünyasının bəşəriyyəti narahat edən qlobal problemlərin həlli yollarının tapılmasında iştirakını təmin edə bilər.

Qeyd edək ki, "Yeni dünya düzənində etimadın yaradılması" mövzusuna həsr olunan III Qlobal Açıq Cəmiyyətlər Forumunda nüfuzlu siyasətçilər yeni dünyanın idarə edilməsi strategiyasının müəyyənləşdirilməsi üçün fikir mübadiləsi aparacaq. Müzakirələrdə onlarla ölkənin hazırkı və sabiq prezidenti, dövlət başçısı, nüfuzlu ictimai-siyasi xadimlər, ekspert, elm adamları iştirak edəcək.

Xatırladaq ki, Forum Dövlət Komitəsinin dəstəyi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilir. 2013 və 2014-cü illərdə Bakıda I və II Qlobal Açıq Cəmiyyətlər Forumu baş tutub.

# Meriya Müsavatın yürüş keçirməsinə "yox" dedi

## Partiya təmsilçisinə "yürüşə razılıq mümkün deyil, mitinq üçün müraciət edin" deyilib; Müsavat bəyanat verdi

**Aprelin 14-də Müsavat Partiyasının Divan üzvü və təşkilat şöbəsinin müdiri Razim Əmiraslanlı partiyanın 19 aprelə təyin etdiyi yürüşlə bağlı Bakı Şəhər İcra Hakimiyyətinə dəvət edilib. Razim Əmiraslanlının musavat.com-a verdiyi xəbərə görə, o, dəvəti qəbul edib və saat 12.30-da BŞİH-də olub. Onunla BŞİH-in Aparat rəhbəri və ictimai-siyasi qurumlarla iş şöbəsinin müdiri Zaur Ramazanovun, həmçinin başqa bir şöbə müdiri arasında görüş olub:**



"Onlar Müsavat Partiyasının "20 Yanvar" metro stansiyasının yanındakı meydandan başlamaqla Həsən bəy Zərdabi prospektindən keçməklə "Məhsul" stadionunda qətnamənin oxunması ilə yekunlaşdırmaq istədiyi yürüşə razılıq verilməsinin mümkün olmadığını bildirdilər. Səbəbini həmin ərazi boyunca təmir-tikinti işlərinin gedişi və nəqliyyatın həddən artıq intensiv hərəkəti ilə əsaslandırmağa çalışdılar. BŞİH rəsmiləri dedilər ki, Müsavat Partiyası yürüş yox, mitinq keçirmək üçün BŞİH-ə yeni rəsmi məktub ünvanlasa, məsələyə baxıla və müvafiq münasibət bildirilə bilər. Bizə faktiki olaraq yürüş yox, mitinq keçirilməsini təklif elədilər. Mən isə bildirdim ki, Müsavat "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna əsaslanaraq yürüş keçirmək qərarını verib və bu qərara uyğun da müraciət edib. Yürüş də sərbəst toplaşmaq azadlığının tərkib hissəsidir və bizim hüququmuzdur. Qeyd etdim ki, əgər BŞİH hesab edirsə ki, Zərdabi küçəsində nəqliyyatın sıxlığı və təmir var, ona görə yürüş keçirmək mümkün deyil, o zaman biz alternativ marşrut da təklif edə bilərik. Təklif etdim ki, "Azadlıq" metro stansiyasının yanından başlayaraq "Dərnəgül" metro stansiyasının qarşısındakı meydanda qətnamənin oxunması ilə yekunlaşan yürüşə şərait yaradılsa, buna razılaşa bilərik. Ancaq onlar dedilər ki, həmin ərazidə də nəqliyyatın sıxlığı var".

**Müsavat Partiyası isə BŞİH-in yürüşə razılıq verməməsi ilə bağlı bəyanat qəbul edib. Bəyanatda Azərbaycan Konstitusiyasının 49-cu maddəsi xatırladılır:** "Maddə 49.II.Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız, yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, KÜÇƏ YÜRÜŞLƏRİ keçirmək, piketlər düzəltmək hüququ vardır. Həmin hüquqlar daha geniş anlamda "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununda da nəzərdə tutulur.

Qeyd edilənləri nəzərə alaraq Müsavat Partiyası BŞİH-in küçə yürüşlərinin keçirilməsini məqbul hesab etməmək barədə mövqeyini konstitusiya və qanunların kobud pozuntusu kimi qiymətləndirir. Vətəndaşların fundamental hüquqlarına qarşı yol verilən bu pozuntunun aradan qaldırılmasını, aprel ayının 19-na planlaşdırılan yürüşün keçirilməsinə rəsmən razılıq verilməsini tələb edir".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 79 (6107) 15 aprel 2015

# Saxta soyqırım Ermənistanın özünə qarşı yönəlir - şərh

**Biri həqiqi, digəri saxta olan 24 aprel yubileylərinə sayılı günlər qaldı. Müşahidəçilərə görə, hər iki hadisə yetərincə maraqlı geosiyasi nəticələrə yol aça bilər. Artıq indidən qeyd eləmək olar ki, Türkiyə, Azərbaycan, Ermənistan və Qərbin hədəfləri, gözləntiləri, o sırada Qarabağ məsələsi və sərhədlərin açılması baxımından 24 apreldən sonrakı situasiya 24 aprelədək olandan keyfiyyət etibarilə fərqlənəcək.**

24 apreldə Bakı və Ankaranın dost-düşmənləri bir daha dəqiqləşəcək, Azərbaycan ərazilərinin işğalına qlobal güclərin yanaşması xeyli cilalanmış olacaq; yeni situasiyada İrəvanın ciddi uduşu fiksiya kimi görünür, çünki...; Bakı isə fürsətdən yararlanıb Minsk Qrupu həmsədrliyində təcili rotasiya tələb edə bilər...

Deməli, tərəflərin qarşıdakı tarixdən götürə biləcəyi siyasi-təbliğati qazanclar üçün şərtlər də fərqli olacaq. Bu şərtlər ən çox hansı tərəfin maraq-mənafeyinə işləyəcək? Analitikləri məşğul edən əsas suallardan biri budur yazsaq, səhv eləmərik.

*****

Bu xüsusda maraqlı bir mövqe rusiyalı politoloq **Qriqori Trofimçuk** tərəfindən səslənib. Ekspert axar.az-a açıqlamasında bildirib ki, Qərb Roma papasının dilindən "erməni soyqırımı"nı tanımaqla faktiki surətdə və ən əvvəl Türkiyəyə qarşı mövqeyini ortaya qoymuş olub, amma...

**Əmma da odur ki, politoloqun nəzərincə, Qərb bunun qarşılığında yaxın müddətdə İrəvana həll edilməsi mümkün olmayan tələblər yönəldə bilər:** "Qərb hesab edirdi ki, dünyanın əsas güc mərkəzlərindən biri olan katolik kilsəsinin rəhbərliyi səviyyəsində "soyqırım"ın tanınmasını təşkil etməklə Ermənistanı Avropa və ABŞ-a yaxınlaşdıracaq. Ancaq bir şeyi bilmək lazımdır ki, Qərb heç nəyi hətta onun maliyyə marağına fayda verməyəcəyi təqdirdə belə, havayı etmir. Belə olan halda Ermənistan Qərb tərəfindən ona edilən təzyiqlərin artmasına hazır olmalıdır".

**Rusiyalı şərhçi Papa Fransisk tərəfindən yönəldilən siqnalı məhz buna işarə sayır:** "Yaxın vaxtlarda İrəvandan rəsmi etirafa qarşılıq olaraq cavab addımlarının atılması ilə bağlı tələblərin peyda olmasını istisna etmək olmaz. Belə olan halda erməni rəhbərliyinin bundan imtina etməsi çox çətin olacaq. Ona görə də "soyqırım"ın tanınmasını konkret nəticə umulan siyasi aksiya kimi qiymətləndirmək lazım gəlir".

**Ekspert hesab edir ki, bununla Qərb Türkiyəyə qarşı da mövqeyini sərgiləmiş olub:** "Onların (Qərbin-red.) fikrincə, Türkiyə özünü ABŞ-ın onun üçün yazdığı kursa əməl etməyərək, düzgün aparmır".

Yəni qənaət hasil olur ki, Qərb bu yubileylərə, ələlxüsus saxta genosid məsələsinə münasibətlə əsas iki hədəf güdür: son illər özündən xeyli "uzaq düşmüş" Türkiyəni özünə sarı geri qaytarmaq, yaxınlaşdırmaq, Ermənistanı isə əksinə, Rusiyanın təsirindən uzaqlaşdırmaq. Ayrı sözlə, "erməni soyqırımı" mövzusu Qərbin əlində ənənəvi təhdid (siyasi bazarlıq) vasitəsi olaraq qalır - ancaq bu dəfə Türkiyə ilə yanaşı, həm də Ermənistanın özünə qarşı.

Yeri gəlmişkən, neçə vaxtdır həm bəzi amerikalı siyasi texnoloqlar, həm də rusiyalı təhlilçilər və hətta rəsmi şəxslər səviyyəsində Qərbin, xüsusən ABŞ-ın öz məqsədinə çatması üçün Ermənistanda rəngli inqilab ssenarisi hazırladığını iddia edirlər. Moskva şübhəsiz ki, belə planlardan xəbərdadır. Trofimçukun fikirlərini də öncəliklə bu rakursda dəyərləndirmək lazım gəlir...

*****

Hələliksə, yubileylərlə bağlı proseslər pik nöqtəsinə çatmayıb. Sözsüz ki, İrəvandakı mərasimə qatılmaq avtomatik şəkildə saxta soyqırımı yüzdə yüz tanımaq anlamına gəlməyəcək. İndiyədək bir çox əcnəbi liderlər, yüksək ranqlı siyasilər protokol qaydasına uyğun olaraq İrəvan səfərləri zamanı uydurma genosid abidəsi önünə əklil qoyublar. Hətta vaxtilə Qırğızıstanın devrilən prezidenti Əsgər Akayev eyni jesti eləmişdi. Lakin bu, heç də o anlama gəlmir ki, onların təmsil elədikləri ölkələr, Qırğızıstan "genosid"i tanıyır.

Ancaq İrəvan mərasimlərinə qatılmaq və ya qatılmamaq konkret mövqe demək olacaq. Necə ki, Roma papası Ermənistana getməyə hazırlaşmadığını söyləsə də dünyanın, BMT-nin, rəsmən tanımadığı bir faciəni "soyqırım" kimi təqdim eləməklə faktiki təxribatçı, qızışdırıcı mövqe sərgiləmiş olub...

Beləcə, İrəvandakı qarşıdakı yubiley töreni bu dəfə ayrı bir siyasi anlamdadır və yüzdə yüz dünyanın Türkiyəyə, Türkiyə ilə birgə isə Azərbaycana gerçək münasibətini daha qabarıq ortaya qoyacaq, həmçinin Dağlıq Qarabağ məsələsində ikili standart yanaşmaların, ermənilərə gizli xristian təəssübkeşliyinin miqyasını nümayişi olacaq.

*****

Bakı və Ankara 24 apreldən sonra bir daha öz dost-düşmənlərini tanıyacaq, hansı qüvvələrin tutaq ki, Qarabağ, sərhədlərin açılması məsələlərində qeyri-səmimi olduğunu, hansı dövlətlərə doğrudan da bel bağlamağın təhlükəli olmasını özü üçün qətiləşdirəcək. Qardaş ölkə isə həqiqi tərəfdaşlarını yenidən tanıyacaq, səf-nəzər edəcək. Bu üzdən 24 apreldəki iki yubiley kifayət qədər mühüm əhəmiyyətli hadisələr olaraq, özlərindən sonra yeni bir situasiya yarada bilər.

Unutmayaq ki, 100 illik tədbirlə Ermənistan iki əsas məqsəd güdür: **1.** Türkiyəni beynəlxalq qınağın hədəfinə gətirmək, küncə qovmaq və bundan yararlanıb Ankaradan bir sıra siyasi güzəştlər qoparmaq, ən azı, ilkin şərtlər olmadan sərhədlərin açılmasına nail olmaq.

**2.** "Əzabkeş xalq" kimi Azərbaycan torpaqlarının, Dağlıq Qarabağın işğalına dünya birliyinin gözündə haqq və legitimlik qazanmaq, işğalçı kimi təzyiqləri özündən uzaqlaşdırıb Azərbaycana yönəltmək.

*****

Lakin təhlillər göstərir ki, 24 apreldən sonra işğalçı ölkə daha diskomfort duruma düşə, önünə daha ciddi imperativlər çıxa bilər, nəinki Ankara və Bakı. Yeni situasiyada Ermənistanın Türkiyə və Azərbaycanla bağlı ciddi uduşa ümidləri də fiksiya kimi görünür. Hər halda, dünyanın aparıcı liderləri Çanaqqalaya gəlməsə belə, İrəvana da getməyəcəklər. Bu da təcavüzkar ölkənin Moskvanın ətəyindən bərk-bərk yapışmasına Qərbin etirazının daha bir forması olacaq.

Bakı isə fürsətdən yararlanıb ATƏT-in Minsk Qrupu həmsədrliyində təcili rotasiya tələb edə, tutaq ki, saxta soyqırım məsələsində Fransadan fərqli olaraq, öz neytrallığını saxlamış və obyektiv mövqe sərgiləmiş Almaniyanın vasitəçiliyə gətirilməsinə və ya onun Fransanı əvəzləməsinə haqlı israr göstərə bilər.

Ermənistana səfərə hazırlaşan Fransa prezident Fransua Ollandı ertəsi gün - aprelin 25-də İrəvandan Bakıya gəlməyə vadar edən motivlərdən biri də yəqin ki, elə budur. Ancaq 25 aprel Bakı səfəri rəsmi Parisin neytral vasitəçiliklə bir araya sığmayan qatı ermənipərəstliyini azaldacaqmı? Ümumiyyətlə, bizə 24 apreldən sonra Fransa kimi vasitəçi lazımdımı?

**Cavablar ritorikdir.**

❑ Siyasət şöbəsi




# 24 aprel: həqiqi və saxta tarixin mübarizəsi

**Qabil Hüseynli:** "Türkiyə öz varlığını qorumaq uğrunda Çanaqqala savaşında 200 mindən çox qurban verdi; ermənilər isə guya məhrumiyyətlərə düçar olmuş xalq olduğunu dünyaya sırımaq istəyir"

**Türkiyə dövləti 24 apreldə Çanaqqala zəfərinin 100 illik yubileyinin möhtəşəm keçirilməsi üçün çalışır. 24 apreldə Ermənistan və dünya erməniləri isə "erməni soyqırımı"nın "yüz illiyi"nə hazırlaşır. Hər iki tədbirə dünyanın müxtəlif ölkələrindən dövlət başçıları, tanınmış siyasi xadimlərin qatılacağı barədə xəbərlər yayılır.**

Çanaqqala savaşının 100-cü ildönümünə 102 ölkənin dövlət və hökumət başçısı dəvət olunub. Türkiyə ilə Ermənistanın arasında sanki bir yubiley mübarizəsi getdiyi müşahidə olunur. Ermənilər isə elə təbliğat aparırlar sanki 24 aprel onların Türkiyə, dünya türkləri üzərində zəfər günü olacaq.

Ancaq hadisələrə soyuqqanlı yanaşan tarixçilər və siyasi təhlilçilər hesab edir ki, tarixdə həqiqətən baş vermiş və dünyada analoqu olmayan Çanaqqala zəfərinin həqiqi yubileyi tarixdə yaşanmayan, uydurulmuş "erməni soyqırımı"nın "yubileyi"nin üzərində qələbə çalacaq.

**Politoloq Qabil Hüseynli bildirdi ki, Türkiyə Çanaqqala zəfərinin 100 illiyini haqlı olaraq təntənə ilə qeyd etməklə özünün istiqlal savaşında qazandığı böyük uğuru qeyd edir:** "Çünki həmin dövrdə ən azı 8 imperialist dövləti Osmanlı İmperiyasının süqutundan sonra yeni formalaşmaqda olan gənc Türkiyə dövlətinin üzərinə hücuma keçmiş və Osmanlının son yadigarını da türklərin əlindən almağa çalışırdılar. İstiqlal savaşında türk xalqı Osmanlı




İmperiyasının layiqli davamçısı olduğunu sübuta yetirdi. Əlbəttə, böyük Atatürkün misilsiz komandanlıq səviyyəsini qeyd etmədən keçinmək olmaz. Məhz onun döyüşlərin önündə olması çox şeyə təsir etdi. Türkiyə öz varlığını qorumaq uğrunda Çanaqqala savaşında 200 mindən çox qurban verdi. Dünyanın elə bir xalqını göstərmək çətindir ki, öz dövlətinin istiqlaliyyətini qorumaq üçün həm bu qədər uzun müddətli istiqlal savaşı aparsın, həm də bunca itkilərə məruz qalsın. Ona görə də bu möhtəşəm tarixin 100 illiyi təntənə ilə qeyd edilməlidir. Türkiyə dövlətinin bunu qeyd etməyə tam mənəvi haqqı var. Türkiyə üçün o qədər də əhəmiyyətli deyil ki, bu təntənəyə hansısa xarici ölkələrin başçıları gələcək, ya da yox. Əsas məsələ bu bayramın təntənəli surətdə keçirilməsidir, türk xalqının milli qürur hissini ucaltmaqdır. Yəni Türkiyə burada hər hansı siyasi məqsəd, siyasi divident güdmür. Hər il qeyd etdiyi böyük tarixi hadisənin ildönümünü bu dəfə yüz illiyi olduğu üçün daha möhtəşəm keçirmək istəyir".

**Q.Hüseynli vurğuladı ki, ermənilər isə uydurduqları "erməni soyqırımı" iddialarını dünyaya sırımaq üçün o uydurmaların "yüz illiyi"ni fürsət bilirlər:** "Ermənistan və dünya erməniləri sanki bunu ölüm-qalım məsələsi olaraq görürlər. Mən tarix barədə məlumatlı olan bir adam kimi tarixdə olmayan "erməni soyqırımı"nın "yüz illiyi"ndə iştirak edəcək siyasi liderlərə zavallı siyasətçilər deyərdim. Həmin tədbirdə iştirak etmək istəyən siyasətçilər, dövlət başçıları həmin dövr haqqında bir tarixi mənbə, kitab oxumayıblar, heç həmin dövr haqqında əməlli-başlı təsəvvürə malik deyillər. Yaradılmış siyasi konyukturaya uyğun olaraq xristian dünyasının siyasi divident götürə biləcəyini ehtimal edərək bu prosesə qatılırlar. Çanaqqala zəfərinin 100 illiyinin təntənəli qeyd olunması ənənəvi bir prosesin növbəti mərhələsidir və siyasi məqsəd güdmür. Amma ermənilər və onların havadarları "erməni soyqırımı"nın "yüz illiyi"nin keçirilməsindən sırf siyasi məqsədlər güdürlər. Məqsədlərdən biri Türkiyəyə qarşı çox böyük iddialarını reallaşdırmaqdırsa, digəri Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını, minlərlə azərbaycanlıya qarşı ermənilərin zaman-zaman həyata keçirdiyi həqiqi soyqırımı, qətliamı pərdələmək, erməni xalqının guya məhrumiyyətlərə düçar qoyulmuş məzlum xalq olduğunu dünyaya sırımaqdır".

**Bu mübarizədən Türkiyənin yenə də zəfərlə çıxacağını düşünən həmsöhbətimizin sözlərinə görə, ermənilər bu prosesdə cüzi qazanc əldə edə bilərlər:** "Böyük miqyasda arzuladıqları isə həyata keçməyəcək. Ermənilərin ürəyindən Türkiyədən böyük təzminat almaq, hətta Türkiyə torpaqlarına siyasi iddianı əsaslandırmaq kimi niyyətlər keçir. Lakin bu niyyətlərinə nail olacaqları inandırıcı deyil".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 79 (6107) 15 aprel 2015



# Başçının şapalaqlanmasına dair şayiə

Samir SARI

**Müdafiə nazirinin icra başçısını şapalaqlamasına dair şayiəni elektron poçtuma isti-isti göndərmişdilər. "İsti-isti" deyəndə bu ifadə sillə-şapalağa aid deyil. Əslində hadisənin 3 gün əvvəl olduğunu deyirlər. Söhbət bu barədəki informasiyanın qaynarlığından gedir.**

İndi durum deyim ki, xəbərə inanmadım, yalan olar. Belə xəbərlər həmişə inandırıcıdır. İnsanlıq halıdır. Bir nazirin əsəbiləşmək və sözünə baxmayan məmuru tənbeh etmək haqqı var. Ancaq təbii ki, tənbeh-məzəmmət prosedurunda fiziki təmasa qanunlar yol vermir. Bununla yanaşı, bəzən qanunların yanından sivişib məmura bir-iki zərbə tutuzdurmaq lazım gəlir. Sadəcə, belə edərkən məqsəd ona bədən xəsarəti yetirmək olmamalıdır, şillə də, təpik də yüngül tənbeh xarakteri daşımalıdır.

Amma baxaq, görək, xalq o şayiəyə dərhal inandımı? İnanmadı. Çünki xalq bilir ki, belə xəbərlər yalan çıxa bilər. Bəzən elə dairələr olur ki, onlar bir İH başçısını aşağılamaq, çurbanın biri olduğunu göstərmək üçün barəsində "şapalaqlanmış", "təpiklənmiş", "itələnmiş" adam obrazı yaradırlar və hesab edirlər ki, dövlət başçısı gün axşamacan "şillə yeyən", "yerlərdə sürünən" kadrını vəzifədə saxlamaz. Yəni bir İH başçısını "vurdurmaq" üçün onu əvvəlcə şillə ilə vurdurmaq lazımdır.

Əvvəllər belə söhbətlər çox olub. Birində deyirdilər, polis rəisi İH başçısına kəllə qoyub, bir xəbərdə də rəisin İH başçısının qasıq nahiyəsinə təpik tutuzdurduğunu bildirirdilər. Əlbəttə ki, bu xəbərlərin heç bir təsdiqlənmirdi. Nə gözünün altına kəllə və ya qasığına təpik zərbəsi alan başçı çıxıb deyirdi ki, bəli, belə bir fiziki təzyiqə məruz qalmışam, nə də qoluzorlu rəis etdiyi qəhrəmanlıqdan bəhs edirdi. Bu şayiənin yeganə təsdiqi o oldu ki, həmin İH başçısı ilə həmin polis rəisi daha eyni rayonda işləmədilər. Əslində işləməliydilər, əgər ortada şillə-kəllə-qasıq-təpik söhbəti olmasaydı, prinsipcə, onlar öz işlərində qalmalıydılar. Çünki vəzifələrinə yeni təyin olunmuşdular.

Fəqət, məsələ belədir ki, təsdiq olunmayan xəbər yalan sayılır. Tərəflər "belə şey olmayıb" deyirlərsə, heç kimə heç nə sübut eləmək mümkün deyil. Hətta ortada fotolar və videokadrlar olsa belə, adı qalmaqalda hallananlardan biri çıxıb deyə bilər ki, o videoda şillələnən adam mən deyiləm, qonşumuz İvandır, beləcə, məsələ bitər.

Bu səbəbdən müdafiə nazirinin İH başçısını döyməsi, yəni ona bir şillə, bir təpik ilişdirməsi xəbəri böyük ehtimalla şayiədir. Birincisi, ortalıqda təsdiq yoxdur, təkzib var. İkincisi, əldə videokadrlar yoxdur. Təbii ki, nazir İH başçısını şapalaqlamaq fikrinə düşübsə, bunu təhlükəsizlik kameralarının görünüş dairəsində etməyəcəkdi, etsə belə, o görüntüləri kim yaya bilər? Ağzımızda "hərbi sirrin qorunması" deyirik. Heç kəs cürət edib başçının şillə-təpiyə qonaq edilməsi prosedurunu mobil telefonunun kamerasıyla da çəkə bilməz. Belə həvəskarları qoyasan, yolda dalaşanları, qəzaya düşənləri çəkələr.

Əgər əldə uyğun videokadrlar, heç olmasa, nazirin başçıya qolaylanmasını göstərən bircə şəkil olsaydı, bəzi nəticələr çıxarmaq olardı. Amma ortada quruca söz-söhbət, şayiə, bəlkə də iftira var.

Kim bilir, bəlkə bu şayiə heç İH başçısına qarşı yönəlməyib, birbaşa naziri "vurmaq" üçün düşünülüb? Ola bilməzmi? Olar. Məqsəd də nazirin aqressiv biri olduğunu göstərmək ola bilər. Hərçənd yayılmış şayiədən sonra cənab nazirin reytinq əmsalı xalq arasında yüksəlmiş kimi görünür. Sosial şəbəkələrdə, xalq arasında nazirin İH başçısını vuran əlinə və ayağına sağlıq diləyənlərin sayı xeyli çoxdur.

Bununla belə, məhz nazir tərəfin adamları şayiəni təkzib edirlər, deyirlər, elə bir haqq-hesab olmayıb.

Beləcə, biz rəsmi qurumların dediyinə inanmalıyıq. Hamı bilsin ki, müdafiə nazirinin Şəmkirdə hərbi hissədə fəaliyyət göstərən restoranı sökməkdən imtina edən İH başçısına bir şillə, bir təpik vurması barədə yayılan xəbərlər şayiədən başqa bir şey deyil.

Siz də belə söhbətlərə inanmayın, əziz oxucular. Video olmasa, inanmayın.

# Telekanalların üstünə "qılıncla" kimi göndərək?

## Zeynal Məmmədli: "Ən təsirli vasitə tamaşaçı auditoriyasının təpkisidir"

**Son illər Azərbaycan telekanallarının reytinq qurbanına çevrilməsi fikri geniş yayılıb. Guya tamaşaçı əyləncə verilişlərinə üstünlük verir, bu verilişlər reytinq və reklam gətirir. Halbuki ölkədə reytinqin ölçülməsi ilə bağlı sual doğuran məqamlar çoxdur. Çünki bu nəticələr ictimaiyyətə açıqlanmır, tamaşaçı da bundan xəbərsiz qalır.**

Azərbaycanda yaş kateqoriyasına görə 55-64 yaş arasında vətəndaşlar telekanallara daha çox baxır. İkinci yeri isə 35-44 yaş arasında olanlar tutur. TV-lər əsasında aparılan orta reytinq göstəricisinə görə ən çox izlənilən proqramlar kriminal verilişlər və şou yarışmalarıdır. İkinci yeri seriallar və satirik proqramlar, komediyalar tutur. Ən az tamaşaçı toplayan verilişlər isə təhsil, gənclik proqramları və sənədli filmlərdir. Evlərində kabel televiziyası olan əhalinin yalnız 34 faizi yerli kanallara baxır. Qalan 66 faiz isə xarici kanalları seyr edir.

Bununla paralel, telekanallar hər gün səviyyəni qaldırmaq əvəzinə, aşağı salırlar. İstisnasız olaraq, ya vur-çatlasın, ya da ağlaşma verilişlərinin əsirinə çevrilib. Bəzən kanallar arasında "gəzişmə" edəndə bunun daha çox şahidinə çevrilirsən. Keyfiyyət etibarilə bir-birindən aşağı olan verilişlər, seriallar, şoular, yarışmalar...

İnsafən, hökumət məmurları səviyyəsində buna kəskin etirazlar da olur. Məsələn, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev tərəfindən bununla bağlı bir neçə dəfə etiraz dolu məqalələr yazılıb. Məmurlar, deputatlar, televiziya mütəxəssisləri tərəfindən zaman-zaman tənqid çıxışları səslənib. Və haqlı bir sual meydana gəlir: bununla bağlı tədbir görülməsi üçün daha kim dilə gəlməli, hansı tədbirlər görülməlidir? Vahid konsepsiya, ciddi cəza mexanizmləri...? "Cücə yumurtadan yaranıb, ya yumurta cücədən...?" misalı tamaşaçı telekanalların arxasında sürüklənir, ya telekanallar tamaşaçının arxasınca?

**Ekspert, deputatların bu mövzuda maraqlı rəyləri var.**

"Bu gün cəmiyyətin özünün mövqeyi və rəyi televiziya verilişlərinin keyfiyyətinin artırılmasını tələb edir". Bu barədə **Milli Məclisin Mədəniyyət komitəsinin sədri Nizami Cəfərov** deyib. "Televiziya və radio yayımı haqqında" Qanuna dəyişikliklərdə Milli Televiziya və Radio Şurasının (MTRŞ) səlahiyyətlərinin artırılması məsələsinə toxunan N.Cəfərov qeyd edib ki, bu gün doğrudan da MTRŞ-nin səlahiyyətlərinin artırılmasına ehtiyac var idi: "Ona görə ki, Milli Televiziya və Radio Şurasının özünün xeyli təcrübəsi yaranıb, məsuliyyəti getdikcə artır. Bunlar hamısı istər-istəməz MTRŞ-nin səlahiyyətlərinin genişləndirilməsini vacib edir. Düzdür, telekanallarımızda inkişaf var, bunu inkar etmək olmaz. Amma yenə də cəmiyyətin televiziyaya olan tələbləri yüksəlib. Ona görə də istər-istəməz həm şou proqramlar, həm də digər məsələlərlə bağlı müəyyən qadağalara, normalara riayət olunması önə gəlir".



Zeynal Məmmədli

**Komitə sədrinin sözlərinə görə, burada söhbət tək ondan getmir ki, MTRŞ-nin səlahiyyəti artırıldıqca o qadağalar gücləsin:** "Sadəcə olaraq, söhbət ondan gedir ki, keyfiyyət yüksəlsin. Son vaxtlar bu məsələlər cəmiyyətdə də geniş müzakirə olunur. Yəni cəmiyyətin özünün mövqeyi və rəyi imkan yaradır ki, telekanallar öz verilişlərini lazımi səviyyəyə qaldırsınlar. Bundan sonra telekanallar daha diqqətli olmalıdırlar".

**"Milli-mənəvi dəyərlərin qorunması da Televiziya və Radio Şurasının üzərinə düşür. Lakin Milli Televiziya və Radio Şurası öz işinin öhdəsindən gələ bilmir. Ölkə telekanallarında şou xarakterli verilişlər çoxalıb. AzTV, İTV və ANS-i çıxmaq şərti ilə digər televiziyalarda daha çox şit, ucuz, bayağı verilişlər verilir. Cəmiyyət də bundan narazıdır".**

**Bunu isə deputat Elmira Axundova Milli Məclisdəki çıxışlarından birində deyib.**

O bildirib ki, telekanallarda sosial reklamlar yoxdur, yerli seriallarını çəkilməsi üçün ayrılan pullar təyinatı üzrə xərclənmir. Onun sözlərinə görə, ölkə telekanallarında şadlıq saraylarının reklamları qadağan edilməlidir.

**Media eksperti Zeynal Məmmədli isə hesab edir ki, sözügedən problemin həlli üçün ən təsirli vasitə tamaşaçı auditoriyasının təpkisidir. Onun sözlərinə görə, ayrı-ayrı tamaşaçı cəmiyyətləri, eyni zamanda televiziya ilə bağlı ekspertlər təpkilərini dilə gətirəndə problemə təsir edir:** "Bizdə Rejissorlar Gildiyası, Kino Gildiyası var. Amma onlar bir-birindən təcrid olunub və olanlara birgə təpki vermirlər. Belə adda-budda sözlər, etiraz çıxışları buxar çıxarmaqdır. Bundan ciddi dəyişiklik gözləmək olmaz. Yerli telekanallarda media azadlığının, seçimin olmaması, menecerlərin özünün təsdiqə ehtiyac duyması, müstəqil proqram siyasətlərinin olmaması kimi problemlər köklüdür. Milli televiziyada çalışanlar isə bu rejimdə işləməyə öyrəşiblər və dəyişmək istəmirlər. Bu cür iş sistemi xüsusi vərdiş tələb etmir".

**Müsahibimiz hesab edir ki, milli telekanallarda baş verənlər cəmiyyətdə gedən proseslərin tərkib hissəsidir. Onun sözlərinə görə, ali məktəblərimiz, Milli Məclisimiz hansı səviyyədədirsə, televiziya da o cür olmalıdır:** "Təəccüblənməli heç nə yoxdur. Təəssüflənməli şeylər çoxdur. Mən məsələyə kompleks baxmanın tərəfdarıyam".

Sevinc TELMANQIZI

# Con Kerriyə Azərbaycan məmurlarına sanksiya tətbiqi çağırışı

## Ekspertin fikrincə, bu cür müraciətlər təzyiq məqsədi daşısa da, indiki məqamda bu, Vaşinqtonun siyasi kursuna uyğun deyil

**İnsan haqları təşkilatları və keçmiş diplomatlar ABŞ dövlət katibi Con Kerriyə açıq məktub yazaraq insan haqlarını pozan Azərbaycan rəsmilərinə viza qadağası qoymağa, onların səhmlərini dondurmağa çağırıblar. AzadlıqRadiosunun məlumatına görə, müəlliflər Azərbaycanın dövlət qurumlarına ABŞ-ın ticarət sahəsində həvəsləndirici yardımlarını dayandırmağa səsləyiblər.**



**Məktub müəllifləri dövlət katibindən fundamental insan haqlarına sayğı göstərməsi üçün Azərbaycan hökumətinə təpki göstərməsini də istəyirlər:** "İllər uzunu Azərbaycanın enerji təminatçısı və terrorçuluğa qarşı mübarizədə, təhlükəsizlik sahəsində tərəfdaş olmasına görə onun insan haqları sahəsindəki məyusedici durumuna nisbətən az diqqət yetirilib.

Son bir ildə artan repressiyalar belə yanaşmanı artıq tamamilə faydasız edib. Əgər Qərb həlledici qərarlar qəbul etməsə, biz yaxınlaşan parlament seçkilərində vəziyyətin daha da pisləşəcəyindən qorxuruq".

**Məktubda AzadlıqRadiosunun Bakı bürosunun qapadıldığı, dövlət rəsmilərinin Qərbə qarşı eybəcər kampaniyada iştirak etdiyi də qeyd edilir. Məktuba "Freedom House" təşkilatı da qoşulub. Təşkilatın saytında məktubla bağlı yerləşdirilmiş xəbərdə deyilir ki, Azərbaycan hakimiyyəti 2014-cü ildə 34 insan haqları müdafiəçisini, siyasi, ictimai fəalı, jurnalisti məhkum və ya həbs edib.**

"İnsan haqları qrupları hesab edirlər ki, hökuməti tənqid edənlərin həbsləri Bakıda keçiriləcək Avropa Oyunları ərəfəsində "küçələri təmizləmək" siyasəti ilə bağlıdır" deyə, məktubda bildirilir. Aprelin 9-da isə dövlət ittihamçısı Azərbaycanda insan haqları pozuntularını aşkar edən fəal təşkilatlardan birinin rəhbəri - Rəsul Cəfərovun 9 illiyə həbs olunmasını tələb edib. Rəsul Cəfərov Bakıda düzənlənən "Eurovision" müsabiqəsi zamanı hökuməti insan haqlarının vəziyyətinə görə sərt tənqid edirdi.

Con Kerriyə açıq məktuba imza atanlar ABŞ dövlət katibinin demokratiya və insan hüquqları üzrə keçmiş köməkçiləri Elliot Abrams, Devid Kramer, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariç, AzadlıqRadiosunun keçmiş direktoru Cefri Qedmin, "Freedom House" təşkilatının direktoru Mark Laqon, Demokratiya və Şərqi Avropa İnstitutunun direktoru İrena Lasota, AZAD təşkilatından Elmar Şahtaxtinski, Qorxmaz Əsgərov, Ramiz Yunus və digərləri olub.

Qeyd edək ki, ABŞ hökumətinin bu cür sanksiya siyahısı bir neçə il əvvəl Rusiya məmurları barəsində hazırlanıb. Vaşinqton insan haqlarını pozmaqda, korrupsiya və sair ittihamlarda adı gedən rusiyalı məmurlar barədə məhdudlaşdırıcı siyahı hazırlayıb. Azərbaycandan olan bəzi məmurlara qarşı bu cür "qara siyahı"ların hazırlanması çağırışları daha əvvəl də olub. Ancaq Vaşinqton müəyyən səbəblərdən bu addımı atmayıb. İndi isə Bakının Avropa Oyunlarına hazırlaşdığı bir zamanda nüfuzlu təşkilat və şəxslərin sanksiya çağırışı edilib. Doğrudur, son zamanlar Azərbaycan hakimiyyətinin Qərb ölkələri ilə dil tapmağa çalışdığı bildirilsə də, ölkə daxilində insan haqları və söz azadlığı mövzusunda ciddi problemlər hələ də qalır. Ancaq hazırda Qərbin Rusiya ilə qarşıdurma vəziyyətində olduğu bir zamanda Azərbaycan kimi ölkə ilə münasibətləri gərginləşdirəcəyi şübhəlidir.

**Politoloq Natiq Miri deyir ki, bu müraciətlər Azərbaycana təzyiq mexanizmi kimi nəzərdə tutulur. Ancaq politoloqun fikrincə, indiki mürəkkəb geosiyasi vəziyyətdə ABŞ hakimiyyəti Azərbaycanla növbəti gərginlik yaratmaq istəməyəcək. Bu mənada ekspert sanksiya çağırışının reallaşacağını zənn etmir:** "Hələlik sanksiya mərhələsi yetişməyib. Rusiya, İran, Suriyaya tətbiq olunan sanksiyalar gözlənilən hədəflərinə çatmamış ABŞ Cənubi Qafqazda prosesləri öz əleyhinə çevirmək istəməz. Çünki ən cüzi sanksiyaların tətbiq olunması belə bu mərhələnin başlandığı anlamına gələr ki, sonrakı mərhələlərdə hədəfə çatmaq üçün artan xətlə davam edir. ABŞ isə hələlik buna hazır deyil. Çünki regionda İranla məsələ hələlik tam aydınlaşmayıb. Rusiya ilə qarşıdurma isə davam edir. Məhz hadisələrin fonunda Yaxın Şərqdə böyük bir savaş başladılır və sanksiya tətbiq olunan tərəflər bu savaşa sürüklənir. Bunlar hamısı böyük bir planın tərkib hissələri kimi baş verir. Ona görə də Azərbaycanı indiki mərhələdə bu siyahıya salmaq Cənubi Qafqazda Rusiyanın birmənalı güclənməsinə gətirərdi. ABŞ məhz bu səbəblərdən hələlik daha təmkinli davranmağa davam edəcək".

**N.Mirinin fikrincə, ABŞ-ın yeni təyin olunmuş səfiri iki ölkə münasibətlərində mövcud olan anlaşılmazlıqları aradan qaldırmaq üçün çalışır və belə bir məqamda Vaşinqton münasibətləri yenidən gərginləşdirməyə çalışmayacaq:** "Nəzərə almaq lazımdır ki, ABŞ səfiri hakimiyyətlə işləmək üçün xüsusi tapşırıqlar alaraq ölkəmizə gəlib və bu yöndə informasiyalar toplanır, analiz edilir və hakimiyyətlə müəyyən islahatların aparılması yönündə işlər aparılır. Gələcək proseslərin də məhz bu kontekstdə davam edəcəyini düşünürəm. Yəni hakimiyyəti dəyişdirmək deyil, daha çox hakimiyyətin mahiyyətcə dəyişməsinə rəvac vermək yönündə işləyir. Olunan müraciətlərsə sadəcə hər şeyin yalnız kökədən ibarət olmadığını göstərmək istəyidir".

❑ **KƏNAN**

# Üç nazirliyin ləğv ediləcəyi xəbəri yayıldı

## Dövlət Gömrük Komitəsinin səlahiyyətlərinin bir qisminin ASAN xidmətə, bir qisminin isə Vergilər Nazirliyinə verilməsi nəzərdə tutulur

**İyunda Bakıda keçiriləcək Avropa Oyunları bitəndən sonra hökumətin strukturunda ciddi dəyişiklik gözlənilir. Bir neçə nazirlik və dövlət komitəsinin ləğvi, bəzilərinin isə səlahiyyətlərinin məhdudlaşdırılması üzrə təkliflər paketi hazırlanır. Bu barədə istiqlal.az-a hakimiyyətdəki mənbələrdən məlumat daxil olub.**




Mənbənin sözlərinə görə, ölkənin neft gəlirlərinin azalması və qlobal iqtisadi böhranın artıq Azərbaycanda hiss olunması hökuməti dövlət xərclərini azaltmağa və ixtisarlara məcbur edir: "Ümumiyyətlə, neft gəlirlərinin kəskin azalması yeni siyasi-iqtisadi situasiya yaradıb. Bu mərhələdə hökumətdə həm strukur, həm də hakimiyyət komandasının yenilənməsini qaçılmaz edir. Bununla bağlı ilkin addımlar Avropa Oyunlarından sonra, daha radikal addımlar isə parlament seçkisindən sonra atılacaq. Mümkündür ki, hökumətin tərkibi 40-50 faiz yeniləşsin və oliqarxları texnkokratlar əvəzləsin".

Struktur islahatı nəticəsində Dövlət Gömrük Komitəsinin ləğv edilməsi, səlahiyyətlərinin bir qisminin ASAN xidmətə, bir qisminin isə Vergilər Nazirliyinə verilməsi nəzərdə tutulur. Eyni zamanda Kənd Təsərrüfatı Nazirliyinin ləğv edilməsi, səlahiyyətlərinin İqtisadiyyat və Sənaye Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında bölüşdürülməsi gözlənilir. Bundan başqa, Səhiyyə Nazirliyinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birləşdirilməsi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ləğvi, funksiyalarının İqtisadiyyat və Sənaye Nazirliyinə verilməsi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin ləğvi, səlahiyyətlərinin Maliyyə Nazirliyinə verilməsi versiyaları nəzərdən keçirilir.

Daha bir neçə strukturun ləğvi də nəzərdə tutulub. Böyük ehtimalla Gənclər və İdman Nazirliyi də ləğv ediləcək və səlahiyyətləri bölüşdürüləcək. Eyni zamanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Statistika Komitəsinin, Diaspora İş üzrə Dövlət Komitəsinin ləğvi, səlahiyyətlərinin başqa qurumlara verilməsi nəzərdə tutulur. Bir qədər əvvəl Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edilib.

# Bəlkə başqa planetə köçək?



Hüseynbala SƏLİMOV

**Demokratlar ABŞ siyasətində çox ilklərə imza atıblar. F.D.Ruzvelt ən çox hakimiyyətdə olan prezident idi. B.Obama ABŞ-ın ilk qaradərili prezidenti və üstəlik də Nobel mükafatı laureatı oldu...**

İndi növbə H.Klintonundur. Bir vaxt dövlət katibi olmuş bu qadın artıq indidən prezident olmaq niyyətini bəyan edib. Təbii ki, bu, Klintonun birinci cəhdi deyil. Amma əvvəlki cəhddən fərqli olaraq o, indi öz arzusuna daha yaxındır. Ən azı ona görə ki, B.Obama da ona dəstək vermək niyyətindədir...

Prinsip etibarilə dövlət katibi elə postdur ki, bu vəzifədə çalışanın siyasi dəsti-xətti haqqında təsəvvür yaratmağa imkan verir...

Ona görə də H.Klinton prezident olsa, "Bu dəsti-xətt bizə tanışdır!" deyə biləcəyik. Düzdür, hələ qabaqda xeyli iş var. Böyük dövlətlərdə bülletenlər adi seçki qutularına atılana qədər böyük proseslər baş verir...

Amma bizim üçün ən önəmlisi nədir? Hamı gözləyir ki, görən, filankəs prezident postunda ermənilərlə bağlı nə edəcək, tutaq ki, "soyqırım" sözünü işlədəcəkmi?

Seçki zamanı böyük vədlər olur. Amma bu apreldən sovuşsaq, bir qədər rahat nəfəs almaq olar. Budur, Roma papası demək istədiyini dedi. Ən maraqlısı isə bilirsiniz nədir?

Vatikan bizimkilərin ən çox baş çəkdiyi yerlərdən idi. Qəribəsi də elə odur ki, bizimkilərin ayağı hara dəyirsə oralar dostumuz olmaqdan dönüb olurlar düşmənimiz...

Hər il bu dırnaqarası, qondarma "soyqırım" məsələsində bir yenilik gətirir. Bir də görürsən ki, bəs filankəs bu sözü işlətdi və yaxud da həmin qondarma olayı tanıdı...

Sonra nə olacaq? Türkiyəli qardaşlarımız deyir ki, böyük hesabla heç nə olmayacaq. Amma budur, Vatikandan elçilərini geri çağırıblar. Səhv etmiriksə, indi qondarma "soyqırım"ı 20-yə yaxın dövlət tanıyıb. İndi nə edək, durub 20 ölkənin hamısından səfirlərimizi geri çağıraqmı? Və yaxud da, fərq etmir, Türkiyə durub 20 ölkədən öz səfirlərini geri çağırsınmı?..

Elə bu səbəbdən də bu olayın tamam təhlükəsiz oyun olduğunu düşünmək də düz deyil. Yox, bu, oyun deyil. Dövlətlər tanıyandan sonra başlayacaq beynəlxalq qınaq mexanizmləri-ermənilərin bu sahədə təcrübələri olduqca çox və məkrlidir...

Bəs nə etməli? Yaşamalı, çalışmalı... Xüsusən də inkişaf etməli... Başqa bir yol yox. Bizim türk ata-babalarımız heç bir "soyqırım" - filan etməyiblər. Bir anlığa təsəvvür edək ki, ediblər, bunu etməyə məcbur olublar. İndi nə etməli? Türk adından imtina etməlimi?...

Təbii ki, yox. Deməli, yaşamaq və mübarizə aparmaq qalır. İndi açığı ayın 24-ü tarixini gözləyirik. Görək, Obama nə deyəcək?..

Təəssüf ki, Vatikan elə bir ciddi instansiyadır ki, xristian dünyasının hamısı olmasa da, böyük əksəriyyəti onu eşidir. Burada təbii ki, bir din həmrəyliyi də var. Amma ABŞ siyasətində heç vaxt Vatikana bağlılıq nümayiş etdirməyib...

Ona görə də Obamanın münasibətindən çox şey asılıdır. Təbii ki, Obamadan sonra növbəti prezidentin növbəsi gələcək... Adamı yoran, bezdirən də elə budur. İndi nə etməli? Yalnız bununla yaşamalımı?..

Bu mənada xanım Klinton bir qədər tanış isimdir. Onun siyasətində ərindən də bəzi detallar olacaq, demokratlardan da və Obamadan da nəsə götürəcək...

Sözsüz ki, hələ tezdir bu haqda danışmaq. Başqa namizədlər də olacaq, müxalifətdə olanlar-respublikaçılar da öz namizədlərini elan edəcəklər. İndicə söhbət açdığımız xanım Klinton da namizədliyini demokratların qurultayında təsdiq etməlidi...

Qərəz, hələ xeyli vaxt var. O vaxta qədər Obamanı da dinləmək şansımız olacaq. Bir daha deyirik ki, onun aprel ayındakı çıxışını səbrsizliklə gözləyirik və ümid edirik ki, o, "soyqırım" sözünü işlətməyəcək...

O bu sözü işlətsə, bilirsiniz, Azərbaycanda necə bir mərəkə baş qaldıracaq? Durub dərhal deyəcəklər ki, gördünüz?.. Amma ərz etdiyimiz kimi, 20 ölkə bu qondarma və dırnaqarası "soyqırım"ı tanıyıb. Onların arasında bizim böyük dostlarımız - Fransa və Rusiya da var... Amma heç kim bunun fərqində deyil, çünki əsas odur ki, bu ölkələr bizim hakimiyyəti də tanıyır, onu tənqid etmir, necə deyərlər, hörmət və izzətini saxlayırlar...

Bəli, bizim üçün əsas budur. ABŞ-ı da tez-tez ermənilərə görə yox, ona görə qınayırlar ki, ABŞ da dinc dayanmır, elə hey durub bunları qınayır. İndi biz nə edək? Bəlkə planetdən köçüb gedək?..

YENİ MÜSAVAT
N 79 (6107) 15 aprel 2015




# AZAL-ın qiymətləri endirməməsinin sirri

## İqtisadçı ekspertlər iki əsas səbəb gətirir - monopolist mövqe və...

**Azərbaycan aviaxidmət bazarında Gürcüstana uduzmaqdadır. Qonşu ölkədə uçuş biletlərinin AZAL-ın qiymətləri ilə müqayisədə dəfələrlə ucuz olması səbəbindən azərbaycanlıların əksəriyyəti Tiflis üzərindən uçmağa üstünlük verir.**

Mətbuatda yayılan son məlumata görə, Türkiyənin ən ucuz hava yolları şirkəti olan "Pegasus" vasitəsilə Gürcüstanın Kutaisi Beynəlxalq Hava Limanından İstanbula 30 avrodan başlayan qiymətlərlə uçmaq mümkün olacaq. Gürcü mətbuatı xəbər verir ki, sərnişinlər ucuz qiymətə İstanbul vasitəsilə Avropa ölkələrinə yetişmək imkanı əldə edəcəklər. Belə ki, "Pegasus" gələn ay Kutaisi-İstanbul reysini açır. Kutaisidən İstanbula biletlərin qiyməti cəmi 29,99 avrodan başlayır.

Bakı Hava Limanından İstanbula uçuş bundan təxminən 5 dəfə bahadır. Üstəgəl, uçuş qiymətlərinin avro ilə hesablanması və avronun məzənnəsinin gündən-günə qalxması səbəbindən uçuş xərclərinin də artması vəziyyəti daha da çətinləşdirir. Bundan əlavə, tələbat yüksək olduğu vaxtlarda, xüsusən də bayram günlərində və yay aylarında AZAL-ın təyyarə biletlərinin qiymətində kəskin artım müşahidə olunur. İnkişaf etmiş ölkələrdə isə əksinə, turizm mövsümündə endirim kampaniyaları həyata keçirilir.

**AZAL-ın nə üçün bazarda belə bir mövqe sərgiləməsinin səbəbinə toxunan iqtisadçı ekspert Qadir İbrahimli bildirdi ki, AZAL-ın qiymətlərinin baha olması onun monopolist mövqedə olması ilə bağlıdır:** "Bu mövqeyinə görə AZAL qiymətləri öz istədiyi kimi formalaşdırır. Türkiyə və başqa ölkələrdə bütün sektorlarda olduğu kimi, aviadaşımalarda da ciddi rəqabət var və bu da təyyarə biletlərinin qiymətinin minimuma enməsinə gətirib çıxarır".

**İqtisadçının sözlərinə görə, bu faktor Azərbaycanda turizmin inkişafına mane olan səbəblərdən biridir:** "Nəqliyyat xərclərinin yüksək olması bir çox turistləri Azərbaycana gəlməkdən çəkindirir. Təbii ki, bu yeganə səbəb deyil, ancaq ən önəmli səbəblərdəndir. AZAL-ın yeni təyyarələrinin alınmasına gəlincə, bu primitiv arqumentdir. İstənilən nəqliyyat vasitəsinin istismar müddəti var və bu müddət bitdikdən sonra o yenilənməlidir. Digər infrastruktur layihələr isə dövlət büdcəsi hesabına maliyyələşir. AZAL-ın vəsaiti hesabına maliyyələşmir".

**İqtisadçı ekspert İlham Şaban qeyd etdi ki, AZAL-ın xidmətlərinin xarici aviaşirkətlərlə müqayisədə baha olmasının səbəbi bu şirkətin infrastruktur layihələrinə həddindən artıq maliyyə ayırmasıdır:** "AZAL-ın mətbuat xidmətinin rəisi Məhərrəm Səfərli bir açıqlama vermişdi ki, bizim təyyarə parkımız tamamilə yeni təyyarələrdən ibarətdir. Burada həqiqət var. Azərbaycan çox bahalı təyyarələr alır. Birdən-birə 300 milyonluq təyyarə alır. Biz əgər qonşu ölkələrlə bunu müqayisə etsək, keçmiş MDB ölkələrində bu qiymətdə təyyarə yoxdur. Sual yaranır ki, bu təyyarələrə xərclənən vəsaiti AZAL necə çıxartmalıdır. Əsas səbəb odur ki, AZAL infrastruktura həddindən artıq böyük məbləğdə pul xərcləyir. Heç bir kommersiya tələbatı nəzərə alınmadan ölkədə neçə yerdə aeroportlar tikilir. İndi Yevlaxda aeroport tikildi, həmin aeroportun saxlanılması da AZAL-ın boynundadır. Zaqatalada, Qəbələdə və digər bölgələrdə aeroportlar var. Bunların hər biri 50 milyona başa gəlir. Bu çəkilən xərclər nəyinsə hesabına çıxarılmalıdır, ya yox? Bakı aeroportuna nəzər salsaq bu regiondakı ən bahalı aeroportdur. Bu aeroportun tikilməsinə 200 milyona yaxın vəsait xərcləndi. Sonradan 2012-ci ildə yenidən təmir edildi. Heç xərclər də açıqlanmadı. Bəs bu təmir-tikinti xərclərini kim ödəməlidir? AZAL-ın biletlərinin baha olmasını səbəbi də budur".

İ. Şabanın sözlərinə görə, Dubay kimi balaca bir şəhərin dünyaca məşhur iki aviaşirkəti var və bu şirkətlərin hər birinin illik mənfəəti 1 milyard dollardır: "Ancaq mən o aeroportlarda olmuşam, Bakı aeroportu Dubay aeroportundan daha gözəldir. Ancaq bu gözəlliyin mənası nədir? Onlar mənfəət qazanır, biz yox. AZAL ölkədə yeganə aviaşirkətdir, ikinci bir aviaşirkət yoxdur. Ancaq bazar açıq olmalıdır. Başqa bir məqam odur ki, Novruz və Yeni il bayramlarında, insanların tətilə getmək istədikləri bir vaxtda qiymətlər nə qədər artır. Öz vətəndaşlarından qazanc çıxartmaq üçün tələbat çox olan vaxtda qiymətlər artırılır, sonradan yenə düşür. Ancaq heç bir Avropa ölkəsində Milad bayramında aviaşirkətlərin qiymətləri artırılmır. Mən belə təcrübəyə heç yerdə rast gəlməmişəm".

❑ **Nərgiz LİFTİYEVA**

# "Gəlir deklarasiyası haqqında" Qanunun tətbiqinə kimlər imkan vermir?

## Nazirlər Kabineti prezidentin göstərişini yerinə yetirmir




**ABŞ prezidenti Barak Obama və həyat yoldaşı Mişel Obamanın illik gəlirləri açıqlanıb. Obamalar 2014-cü ildə 477 min 383 dollar qazanıb. Prezident ailəsi bu gəlirdən ötən il 93 min 362 dollar gəlir vergisi ödəyib və 33 yardım fonduna ümumilikdə 70 min 712 dollar köçürüb.**

Ən böyük gəliri prezident maaşı olan Barak Obama bu vəzifəsinə görə ildə 400 min dollar qazanır. Cütlüyün bu maaşdan əlavə əsas gəlir mənbəyi Barak Obamanın 1995 və 2006-cı illərdə yazdığı iki kitabın satışından qazandıqlarıdır. Obamanın yazdığı kitablardan əldə etdiyi gəlirin aşağı düşməsi qazancının azalmasına səbəb olub.

ABŞ prezidentinin ailəsi 2012-ci ildə 662 min dollar, 2013-cü ildə isə 503 min dollar gəlir əldə edib. Barak Obama ən böyük qazancını prezident seçildiyi 2009-cu ildə götürüb. O, həmin il kitablarının satışından və Nobel Sülh Mükafatından təxminən 5,5 milyon dollar qazanıb.

Qeyd edək ki, ABŞ-da və dünyanın əksər ölkələrində vəzifəsindən asılı olmayaraq bütün məmurlar illik gəlirlərini rəsmi şəkildə açıqlayırlar. Bu, "Gəlir deklarasiyası haqqında" qanunun tələbidir. Vətəndaşlar öz gəlirləri barədə müvafiq qurumları məlumatlandıraraq, vergi ödəyirlər. Postsovet ölkələri sırasında bu qanun nəinki Baltikyanı dövlətlərdə, eləcə də qonşu Gürcüstan və Rusiyada da qəbul olunub və tətbiq edilir. Qərb ölkələrində isə artıq xeyli vaxtdır gəlir deklarasiyasını "online" şəkildə də həyata keçirmək mümkündür. Azərbaycanda isə 2005-ci ildə "Gəlir deklarasiyası haqqında" Qanun Milli Məclisdə qəbul edilib. Həmin qanuna görə, vəzifəli şəxslər ildə bir dəfə öz gəlirləri barədə məlumat verməlidirlər və vergi ödəməlidirlər.

Qanunun qəbulundan sonra prezident bəyannamə formasının hazırlanması ilə bağlı Nazirlər Kabinetinə üç ay vaxt verib. Amma bu müddətin bitməsindən illər keçsə də, bu qurum həmin formanı hazırlayıb ortalığa çıxarmayıb. Qanunun tətbiq edilməməsini də bəyannamə formasının hazır olmaması ilə izah edirlər.

Bu məsələ ilə bağlı Nazirlər Kabinetinə müraciət etdikdə "Maliyyə Nazirliyinə müraciət edin" məsləhətini eşidirsən, Maliyyə Nazirliyinə müraciət etdikdə isə gəlir bəyannaməsi formasının Nazirlər Kabinetində hazırlanmalı olduğunu deyirlər.

Nəticədə isə qanun tətbiq olunmamış qalır və Azərbaycandakı məmurların əmlakları və il ərzində əldə elədikləri gəlirləri haqqında heç bir yerdə rəsmi məlumat yoxdur.

Ekspertlər bildirirlər ki, sözügedən qanunun tətbiq edilməməsi yüz milyonlarla manatın dövlət büdcəsindən kənarda məmurlarda qalmasına səbəb olur. Azərbaycanda gizli iqtisadiyyatın, qeyri-leqal gəlirlərin yüksək səviyyədə olması məmurları gəlirlərini deklarasiya etməkdən çəkindirir. Ona görə ki, məmurların əksəriyyətinin malik olduqları sərvətin və ya əmlakın dəyəri onların aldıqları əmək haqqı ilə mütənasib deyil. Belə bir vəziyyət isə ölkədə korrupsiya səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Azərbaycan dünyada gəlirlərin deklarasiya edilmədiyi nadir ölkələrdəndir. Gəlirlər deklarasiya edilmədiyindən pul dövriyyəsinə daxil olan vəsaitlərin həcmini tam olaraq proqnozlaşdırmaq mümkün deyil. Bundan başqa, qeyri-rəsmi yolla əldə edilən vəsaitlər deklarasiya edilmədiyindən asanlıqla dövriyyəyə daxil olur. Deklarasiya sisteminin olmaması qazancların necə və ya hansı yollarla əldə edildiyini müəyyənləşdirməyə imkan vermir.

Mütəxəssislər onu da bildirirlər ki, gəlirlərin deklarasiya edilməməsi çirkli pulların izlənməsini çətinləşdirir. Bu, həmçinin rəsmi qazanclarla qeyri-rəsmi qazanclar arasındakı fərqin itməsinə səbəb olur. Gəlirlərin qanuni və ya qeyri-qanuni yolla əldə edilməsini müəyyənləşdirmək mexanizmi normal işləmir. Əldə edilən vəsaitlərin hansı istiqamətlərə xərclənməsinə də nəzarət zəif təşkil edilib.

Ekspertlərə görə, məmurların bizneslə məşğul olması qanunla qadağan olunsa da, reallıqda bu heç də belə deyil. Bu baxımdan da gəlir deklarasiyasının tətbiqinə başlanılsa, məmurlar özü və ailə üzvlərinin gəlirləri haqqında vergi orqanına hesabat verməlidirlər. Bu isə bir-iki min manat maaş alan məmurların maraqlarına uyğun gəlmir.

**Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri Natiq Miri hesab edir ki, məmurların gəlir bəyannaməsi formasının indiyə qədər hazır olmaması çox təəccüblü olmaqla yanaşı, hansısa güclü əllər vasitəsilə bu məsələnin həlli əngəllənir:** "Prezident qanunun qəbulundan sonra gəlir bəyannaməsinin formasının hazır olması üçün Nazirlər Kabinetinə üç ay vaxt vermişdi. Hansısa məmurun bu məsələyə qarşı çıxmasının heç yeri də yoxdur. Çünki Azərbaycan kiçik bir ölkə olduğundan hansı məmurun nə qədər var-dövlətə, mülkə malik olduğunu hamı bilir və bunu prezident özü də dəfələrlə öz çıxışlarında səsləndirib. Deputat bu məsələdə məmurları səmimi olmamaqda qınayıb. Görünür, bu məsələyə də ölkə başçısının ciddi şəkildə şəxsən müdaxilə etməsinə ehtiyac var".

❑ **E.SEYİDAĞA**

**Xoşqədəm Hidayətqızı müəllifi olduğu və ATV-də yayımlanan populyar "Səni axtarıram" verilişinin bağlanmasının səbəblərinə aprelin 14-də keçirdiyi mətbuat konfransında aydınlıq gətirib. X.Hidayətqızı mətbuat konfransını rəhbərlik etdiyi "Üç nöqtə" qəzetinin redaksiyasında keçirib. O, ATV kanalının əməkdaşlarını mətbuat konfransına buraxmayıb. Lent.az-ın əməkdaşının verdiyi məlumata görə, X. Hidayətqızı ATV əməkdaşlarını keçirdiyi mətbuat konfransında görmək istəmədiyini bildi-**



# Xoşqədəm Hidayətqızı hər şeyi danışdı

## "Verilişin gəlirlərinin 50 faizi mənə verilməli idi amma verilməyib. Heç istəmirəm də..."

**O, "Azad Azərbaycan"dan gələn jurnalist Vüqar Vüqarlı ilə görüşüb:** "Vüqar, sən mənim dostumsan. Amma sizi bura kim çağırdı? Mən ATV-nin burda olmasını istəmirəm. Sadəcə, çox az sayda jurnalisti dəvət eləmişəm".

**Xoşqədəmin sözlərinə V.Vüqarlı belə cavab verib:** "Saytdan oxuyub gəlmişəm. İndi nə edək? Çıxaq gedək?"

Daha sonra X.Hidayətqızı ilə söhbətləşən ATV-nin əməkdaşı və çəkiliş heyəti mətbuat konfransını tərk edib.

**X.Hidayətqızı ATV-nin əməkdaşını mətbuat konfransından qovmadığını deyib:** "Mən onları qovmamışam. Sadəcə, onlara dedim ki, 2 saat sonra gəlin, sizə ayrıca müsahibə verəcəm".

### "Vüqar Qaradağlı mənə dedi ki, veriliş dayandırılmalıdır"

**Musavat.com xəbər verir ki, X.Hidayətqızı ilk olaraq, ATV kanalı ilə bağlı danışıb:** "Beş il öncə mən bu layihə ilə kanallara müraciət edən zaman, ATV-dən başqa hamısı məndən üz döndərdi. Çünki televiziya kanallarında tanınan bir sima olmadığıma görə verilişi götürməkdə tərəddüd etdilər. Amma ATV kanalı mənim yolumu açdı və tamaşaçı sevgisi qazandırdı. Bu kanal mənə ata yurdu kimidir. Və mənim o kanalla bağlı heç bir problemim yoxdur.

2013-cü ildə dost kanallardan birində mənim verilişim formasında proqram efirə getdi. Gedib ATV rəhbərliyinə yaxınlaşdım və rica etdim ki, verilişin müəllif hüquqlarını alaq. Onlar mənimlə razılaşdılar. Amma müəllif hüquqlarını almaq üçün müraciət edəndə mənə dedilər ki, 1 il öncə ATV rəhbərliyindən müraciət edilib. Amma mən orada olmadığım üçün razılıq verilməyib. Bu, mənim qüruruma toxundu. Mənim xəbərim olmadan, mənim verilişimin hüquqları alınmaq istənilib".

**X.Hidayətqızı bu məsələdə birbaşa ATV-nin prezidenti Vüqar Qaradağlını ittiham edib:** "Vüqar Qaradağlı yanvar ayında səfərimiz zamanı mənə dedi ki, "istəyirəm, layihəni efirdən qaldırım". Mən şoka düşdüm. Bu qədər reytinqli bir veriliş niyə görə bağlansın? Bizə dünyanın hər bir nöqtəsindən müraciətlər edilir. Mən ona cavab verdim ki, qəfildən bu verilişi saxlamaq olmaz. Bu, insanların, izləyicilərin haqlı narazılığına səbəb ola bilər. Mövsüm sonuna qədər davam edək. Sonra bağlasaq belə, problem olmaz. Bunu indi etsək, kanalın nüfuzuna da zərər gələ bilər. O, mənimlə razılaşdı. Amma bir müddət sonra, aprel ayında Vüqar Qaradağlı mənə dedi ki, veriliş dayandırılmalıdır. Çünki ona deyiblər ki, ATV-də axtarış verilişi olmasın. Onun mənə dedikləri yalandır. Heç kim ona kanalda axtarış verilişinin olmaması ilə bağlı bir söz deməyib. Mən onun bu israrından sonra razılaşdım. Dedim ki, bu layihə mənimdir. Bunu 5 il öncə mən yaratmışam. Siz mənə yazılı şəkildə sənəd verəcəksiniz ki, bu projenin sahibi mənəm. Mən də bu layihəni başqa kanalda həyata keçirim. Amma Vüqar müəllim sənədi mənə vermir. Dünən (aprelin 13-ü) üçün söz vermişdi. Amma mənə dedi ki, bu sənədi sənə verməyəcəyəm. Bu mənim haqqımdır. Halal zəhmətimdir. Mənə dedi ki, get, başqa kanalda layihəni davam etdir, belə bir veriliş yayımlanmayacaq. Təbii ki, inanmadım. Və verilişin müstəsna hüquqlarını göstərən şəhadətnaməni aldım".



## "Mən onları qovmamışam"

### "Verilişin gəlirlərinin 50 faizi mənə verilməli idi"

**X.Hidayətqızı bildirib ki, onu pul maraqlandırmır:** "Mən məcburiyyət qarşısında qalaraq, burada hər şeyi danışıram. Hansı ki, mən özüm açıqlama hazırlamışdım ki, ATV-dən öz istəyimlə gedirəm. Amma məni buna məcbur ediblər. Bu zamana qədər verilişin gəlirlərinin 50 faizi mənə verilməli idi. Amma verilməyib. Heç istəmirəm də... Məni pul maraqlandırmır. Məni halallıq maraqlandırır. Məni verilişim, o verilişə ümidlərini bağlayan minlərlə insan maraqlandırır. "Səni axtarıram" verilişində yüzlərlə insanın ümidi, göz yaşı var. Mənim arxamda heç kim yoxdur. Tək qadınam. Mənim atam adi adamdır. Mənə qalib gəlmək olar. Bəs haqq? Haqqı yemək olarmı? Bəs qanun?"

**O, proqramda yeyintinin olması ilə bağlı suallara da cavab verib:** ""Səni axtarıram" zavoddur ki, yeyinti olsun? Orada nə qazanılıb, hansı reklamlar verilib, xəbərim olmayıb. Pul haqq-hesablarından xəbərim yoxdur. Atam mənə tapşırıb ki, hər zaman evinə halal pul gətir. Haram pul qazanmamışam. Mən komandamla ANS-ə getmişəm. Heç bir əməkdaşımı dəvət etməmişəm. Onlar öz istəkləri ilə mənim yanıma gəldilər".

X.Hidayətqızı sonda bildirib ki, onun ATV kanalı ilə heç bir problemi yoxdur. Məsələ rəhbərlik məsələsidir. ATV-dən tələbi də, sadəcə, ona verilməli olan sənəddir ki, həmin sənəd sayəsində müəlliflik hüquqlarını alsın və yeni kanalda öz fəaliyyətini davam etdirsin.

### Aparıcı Mehriban Əliyevaya müraciət edib

**Xoşqədəm Hidayətqızı Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevaya müraciət edib.**

**Musavat.com-a daxil olan X.Hidayətqızının müraciətində deyilir:** "Hörmətli Mehriban xanım, bu layihənin inkişafı, yaşaması, insanlara köməyimizin dəyməsi üçün bu beş ildə həyatımı təhlükələrə atdığım dövrlərdə olub. Suriyada, Əfqanıstanda, İraqda ölümlə üz-üzə qaldım. Bütün bu zəhmətin heç olmaması üçün Vüqar Qaradağlıya xahiş etdim. Amma dinləmədi. Aprelin 12-də "Səni axtarıram"ı bağladı. Dedim ki, o zaman ATV bir imtina arayışı versin ki, mən halal haqqım olan bu layihə ilə digər telekanala gedim və insanların ümid yeri kimi baxdığı layihəni davam etdirim. Vüqar Qaradağlı söz verdi ki, iki gün sonra arayışı verəcək. Lakin sözünün üstündə durmadı və mənə qarşı qara piar kampaniyası başladı.

Mən bir qadınam, anayam, gücsüz, zəif ola bilərəm. Hörmətli Mehriban xanım, yüz minlərlə insanın ümid yeri olduğunuz hamımıza məlumdur. Sizdən bu məsələdə mənə öz köməyinizi əsirgəməməyinizi, Vüqar Qaradağlının "Səni axtarıram" layihəsinə aid olan material və sənədlərin, həmçinin vəd etdiyi arayışın mənə verilməsinə təsir göstərməyinizi xahiş edirəm".

### ATV-dən cavab gəldi

**ATV telekanalının Xoşqədəm Hidayətqızının Vüqar Qaradağlının ünvanına səsləndirdiyi sərt ittihamlara cavabı gecikməyib. Televiziyadan "qafqazinfoya"ya daxil olan açıqlamanı olduğu kimi təqdim edirik:** ""Səni axtarıram" verilişinin müəlliflik hüququ Xoşqədəm xanıma aid deyil. Layihənin 2 müstəsna hüquqi sahibi var. Müəllif Hüquqları Agentliyi tərəfindən bu sənəd 11.10.2013 tarixdə qeydiyyata alınıb. Və burada da açıq şəkildə göstərilib ki, 1-ci müstəsna hüquq sahibi Azad Azərbaycan MTRK-dır, 2-ci Xoşqədəm Hidayətqızı və digər hüquqi şəxslər *(bura isə daha 3 nəfər aiddir).* Bunu verilən şəhadətnamənin ardıcıllıq nömrəsindən də aydın görmək olar. (N-7722 ATV kanalında, N-7723 isə Xoşqədəm xanımdadır). Və buradan da aydın görünür ki, əsas söz sahibi ATV kanalıdır.

**2.** Bəli, bu səlahiyyətin tam olaraq Xoşqədəm xanıma verilməsindən kanalın rəhbəri Vüqar Qaradağlı imtina edib. Bu da onun müstəsna hüququdur və o da öz şəxsi maraqlarına görə yox, rəhbərlik etdiyi ATV-nin maraqlarına uyğun olmadığına görə bu qərara gəlib.

**3.** Digər tərəfdən, veriliş ATV-də yaranıb. O vaxt vitse-prezident vəzifəsində çalışan Həsən müəllimin rəhbərliyi və məsləhəti əsasında bu layihə ərsəyə gətirilib. Yəni bu layihə kənarda hansısa prodakşının və yaxud da konkret bir şəxsin beyninin məhsulu olmayıb. ATV-nin məhsulu olub.

**4.** Xoşqədəm xanımın "söhbəti olduğu kimi danışacam" deməsinə gəlincə, bu məqama vaxtı gəldikdə aydınlıq gətirilə bilər.

**5.** Xoşqədəm xanım bildirib ki, bu verilişin gəlirinin 50%-i mənə çatmalı idi. Hər bir razılaşma qanuni müqaviləyə əsaslanmalıdır. 01 oktyabr 2013-cü il tarixində ATV kanalı ilə Xoşqədəm Hidayətqızı arasında bağlanan müqavilənin "maliyə şərtləri və ödəniş qaydaları" hissəsində açıq göstərilib ki, "Səni axtarıram" televiziya verilişinin hazırlanmasına və yayım formasında istifadəsinə görə verişin ssenari müəllifi və aparıcısı Xoşqədəm Hidayət qızı Baxşəliyevaya əmək haqqı ödənişi onunla "Azad Azərbaycan" MTRK arasında bağlanmış 0208.2012-ci il tarixli əmək müqaviləsinə uyğun olaraq həyata keçirilir.

Həmin müqavilənin 3.2-ci bəndində isə açıq şəkildə yazılır ki, "Tərəflərin qarşılıqlı razılığı ilə "Səni axtarıram" televiziya verilişinin hazırlanmasına və ATV-də yayımına görə verilişin ssenari müəllifi və aparıcısına qonorar ödənilməyəcək.

**6.** O ki qaldı komanda məsələsinə, yəni birgə çalışdığı insanlarla birlikdə digər kanala keçməsinə, ATV kanalı olaraq bir daha bəyan edirik ki, adıçəkilən layihədə çalışan insanlar kanalın əməkdaşlarıdır, konkret olaraq hansısa şəxsin yox. Və digər tərəfdən həmin layihədə çalışanların ümumi sayı, Xoşqədəm xanım daxil 10 nəfər olub. Və onlardan 5 nəfəri hazırda da şirkətdə digər layihələrdə öz işlərini davam etdirir. Digər 4 nəfər isə hələ ki öz yekun qərarını verməyib".

❑ **Məhəmməd TÜRKMƏN,**
**Fotolar müəllifindir.**

YENİ MÜSAVAT
N 79 (6107) 15 aprel 2015

# Regionların elektrik problemi nə vaxt həllini tapacaq?



## Tanrıverdi Mustafayev: "Artıq problemlərin aradan qaldırılması işlərinə başlanıb"
## Eyyub Hüseynov: "Qaz və elektrik verilişi bir əldə birləşməlidir"

**Azərbaycanın bölgələrinin elektrik enerjisi ilə təminatında yaranan problemlər o həddə çatıb ki, dövlət başçısı aprelin 10-da Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına iclasında çıxışı zamanı bu məsələyə toxunub. Prezident bildirib ki, icra başçıları problemi gizlətmək istəsələr də, problem ciddi şəkildə qalmaqdadır.**

**"Yeni Müsavat"a açıqlamasında problemin mövcudluğundan danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, artıq bu sahədə əsas vəzifə yeni yaradılan qurumun, "Azərişıq"ın üzərinə düşür:** "Kənd yerlərində həqiqətən elektrik enerjisinin verilməsi ilə bağlı problemlər yaşanmaqdadır. Bakıdan 120 kilometr aralı olan Sabirabad rayonunun Nizami, Nəsimi, Boranlı kəndlərindən bu tipli şikayətlər gəlir. Bu isə o deməkdir ki, ölkənin regionlarında bu problem mövcuddur. Nə yaxşı ki, sovet hökumətinin axırıncı illərində çox yerdə işıq dirəkləri yeniləndi. Belə olmasaydı, indi çoxdan Azərbaycanın bölgələri işıqsız qalardı. Digər bir problem isə elektrik gərginliyinin artıb-azalmasıdır. Təəssüf ki, əhalinin məişət cihazları yananda buna heç kim cavabdehlik daşımır. Ümid edirik ki, "Azərişıq" enerjinin ötürülməsi və keyfiyyəti ilə bağlı problemləri həll edəcək. Əgər bu olmayacaqsa, o zaman "Azərişıq"la "Azərenerji"nin, "Barmek"in heç bir fərqi olmayacaq. Azad İstehlakçılar Birliyinin yeni yaranmış qurumdan gözləntiləri odur ki, əhali ilə müqavilələr bağlansın və "Azərişıq" öz üzərinə öhdəliklər götürsün".

**İllərdir bu sahəyə ayrılan vəsaitlərin necə xərclənməsinə toxunan E. Hüseynov qeyd elədi ki, vəsaitlər rasional istifadə olunmayıb, transformatorlarda böyük problemlər var:** "Bakıdan 100 km aralıda qaz yoxdur, elektrik tez-tez kəsilir. Bu ərazidə meşə də yoxdur. İnsanların qazı, yandırmağa odunu olmayanda məcbur qalıb elektrik pilətələrindən istifadə edirlər. Bu səbəbdən transformatorlar yüklənir və sıradan çıxır. Transformatorların sıradan çıxmaması üçün elektrikin verilməsini dayandıranda vətəndaş məcburi olaraq, əlinə balta götürüb harada taxta gördüsə dağıtmalıdır, özünə istilik yaratmalıdır. Ona görə, bizim fikrimizcə, qaz və elektrik verilişi bir əldə birləşməlidir. Həmin qurum da bilməlidir ki, hansı bölgədə qaz yoxdursa, oranı daha güclü elektriklə təmin etməlidir".

**"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev də bildirib ki, yeni yaradılmasına baxmayaraq bu qurum artıq regionlarda elektrik təminatı ilə bağlı problemlərin aradan qaldırılması istiqamətində işlərə başlayıb:** ""Azərişıq" ASC təhvil-təslim işlərini başa çatmasını gözləmədən regionlarda istehlakçıların elektrik enerjisi ilə təchizatı vəziyyətini öyrənməyə başlayıb. İstehlakçıların elektrik enerjisi ilə davamlı təminatı istiqamətində mövcud olan qaçılmaz problemlərin də aradan qaldırılmasına start verilib. İşlərin sürətləndirilməsi üçün bayram günləri də daxil, səhmdar cəmiyyətin vəzifəli şəxsləri, mütəxəssisləri regionlarda olublar. Biz ilk olaraq 7 region yaratdıq. Bakı Regional Enerji Təchizatı və Satışı İdarəsi, Şimal Regional Enerji Təchizatı və Satışı İdarəsi, Qərb Regional Enerji Təchizatı və Satışı İdarəsi və sair. Artıq qısa müddətdə əksər məntəqələrdə 40-dan çox komplekt transformator məntəqələri quraşdırılıb. Bu məntəqələr ən müasir avadanlıqlarla təchiz olunub".

**"Azərişıq" ASC-dən yayılmış məlumatda isə qeyd edilir ki, cəmiyyətin bazasında texniki təchizat bazası yaradılıb, bütün rayon mərkəzlərində, qəsəbə və kəndlərdə yararsız, istismar müddəti başa çatmış komplekt transformator məntəqələrinin yenilənməsi-müasir tipli avadanlıqlarla təchiz edilməsi prosesinə başlanılıb:** "Yeni güc mərkəzləri həm görünüşcə əvvəlkindən fərqlənir, həm də böyük texniki üstünlüklərə malik olmaqla yeni, müasir KTM-lərdir. Bu işlərlə yanaşı, uzun illər istismar olunan ağac dayaqlar da yeni dəmir boru dayaqlarla əvəzlənir. Açıq tipli, uzun müddət istismarda olduğu üçün yararsız vəziyyətə düşmüş, heç bir standarta uyğun gəlməyən alüminium naqillər özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənir. Bu tədbirlər abonentlərin elektrik enerjisinə olan tələbatını yaxşılaşdırmaqla bərabər normadan artıq texnoloji itkilərin azaldılmasına və uçot sisteminin daha təkmil şəkildə aparılmasına müsbət təsir göstərəcək. Ölkə ərazisində yeni KTM-lər quraşdırılmazdan qabaq həmin ərazilərdə abonentlərin sayı tam dəqiqləşdirilir, perspektiv inkişaf istiqamətləri öyrənilir və gələcək tələbata uyğun güc mərkəzləri seçilir. Hazırda rayonlarda 35 Kv-luq yarımstansiyaların quraşdırılması işləri də gedir. Bayram günlərində gücləndirilmiş iş rejimində çalışan "Azərişıq" ASC əməkdaşları Şimal Regionunda *(Xızı, Siyəzən, Şabran, Quba, Qusar və Xaçmaz)* onlarla komplekt transformator məntəqəsini (KTM) quraşdıraraq istifadəyə verib. Yeni quraşdırılan KTM-lər istehlakçılar üçün yerlərdə etibarlı, təhlükəsiz, dayanıqlı elektrik enerjisinin ötürülməsinə tam təminat verir".

❑ **Nərgiz LİFTİYEVA**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (051) 984-90-63**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34


Azercell

## «Azercell» şəbəkəsi güclənməkdə davam edir
### Şirkət bu ilin I rübündə daha 72 baza stansiya quraşdırdı

**«Azercell Telekom» həm abunəçi sayına, həm də təqdim etdiyi rabitə xidmətinin keyfiyyətinə görə Azərbaycanın lider mobil operatoru olmaqda davam edir. «Azercell»in təklif etdiyi keyfiyyətli rabitə abunəçinin harada olduğundan asılı olmayaraq öz yaxınları ilə hər zaman rahat əlaqə qurmaq imkanı deməkdir. 2014-cü ildə 169-dan çox 2G/3G Radio Baza Stansiyası quraşdıran və 3G şəbəkəsinin tutumunu rekord səviyyədə (ölkə üzrə 48%, Bakı şəhəri üzrə 92%) gücləndirən şirkət bu ilin I rübündə daha 72 baza stansiyasını abunəçilərin istifadəsinə verib. «Azercell» bu ilin yanvar ayında 5, fevralda 15,martda isə 30 sayda 3G baza stansiyası quraşdıraraq öz şəbəkəsini daha da gücləndirib. Bundan əlavə ölkənin lider mobil operatoru 22 sayda 2G baza stansiyasını abunəçilərin ixtiyarına verib. Ümumillikdə isə hal-hazırda ölkə ərazisində «Azercell»-in 2660 sayda 2 G, 1760 sayda 3G və 257 sayda 4G baza stansiyası mövcuddur. Hər zaman abunəçilərini yüksək səviyyəli xidmətlə təmin etmək üçün öz şəbəkəsini təkmilləşdirən «Azercell» toplam 4677 baza stansiyası ilə fəaliyyət göstərir. Məlumat üçün bildirək ki, Azərbaycanın ən geniş və güclü şəbəkəsinə sahib olan və daima keyfiyyəti ilə seçilən «Azercell Telekom» son iki il ərzində öz şəbəkəsini 25% faiz daha da gücləndirib.**

**Bir sıra innovativ konsepsiyaları ilk olaraq Azərbaycana gətirən «Azercell» ölkədə ilk dəfə olaraq GSM texnologiyası, GPRS/EDGE, həmçinin, 4G şəbəkəsini təqdim edib. Şirkətin təşəbbüsü ilə Azərbaycanın bir neçə universitetində 3G və 4G sınaq laboratoriyaları yaradılmışdır. «Azercell» hər zaman olduğu kimi öz abunəçilərini ən qabaqcıl texnoloji yeniliklər və keyfiyyətli rabitə sisteminin üstünlüklərindən faydalanmasını təmin etməkdədir.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**


## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- Çayek balı
- *Karkıra balı və s.*

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71



# Azərbaycanda zorlama halları artıb, çünki...

**Son vaxtlar Azərbaycan mətbuatında zorlama xəbərlərinin sayı artıb. Tovuzda baş verən dəhşətli hadisədən - 4 oğlanın 1 qızı zorlamasından sonra cəmiyyətdə bu sayaq hallarla bağlı şikayətlər çoxalıb. İlkin yaranan fikir budur ki, bu cür xəbərlər çoxaldıqca cəmiyyətdə ona qarşı immunitet yaranır, bunu yaratmağa çalışırlar.**

Xüsusən də baş vermiş hadisələrdə serialların məsuliyyət payını görənlər də az deyil. Türkiyənin "Kanal D" kanalında "Fatmagülün suçu nə" serialı 4 oğlanın bir qızı zorlaması, ardınca isə oğlanlardan birinin həmin qızla ailə qurub, xoşbəxt olması ssenarisi insanların hadisələrə yanaşmasında, düzümündə, reaksiyasında bir fərqlilik yaradır.

Ekspertlər nə düşünür? Bu sayaq xəbərləri mediadan gizlətməkmi lazımdır? Yoxsa üstünə düşüb, cəmiyyətdə tirajladıqca onun təsir gücünü azaltmağa nail olmaq mümkündür?

Rəylərə keçmədən xatırladaq ki, ümumən dünya ölkələri arasında qadınların zorlanması üzrə lider ölkə Hindistandır.

Hindistanda yerli və xarici qadınların zorlanması artıq adət halına çevrilib. Çoxmillətli ölkədə hər 20 dəqiqədən bir qadın zorakılığına rast gəlinir. Təqdim olunan hesabata əsasən, Hindistanda zorlama halları 2010-cu ildən bəri 7,1 faiz artıb. Həmçinin o da qeyd olunur ki, Hindistan dünyada yeganə yerdir ki, bir qadın oraya getməzdən öncə iki dəfə düşünməlidir.

Psixoloji araşdırmalar isə müəyyən edib ki, ümumən cinsi təcavüzün kökündə psixoloji problemlər dayanır. Zorlamaya məruz qalanlar əksər hallarda bu faktı gizlədir. Bu da gələcəkdə daha da ağır nəticələrə gətirib çıxarır. Hətta evində, həyat yoldaşı tərəfindən təcavüzə uğrayan qadınlar da var ki, bu halların əsas psixoloji səbəbi cinsi səmimiliyin olmamasındadır. Araşdırmalara görə, cütlüklər arasında cinsi səmimiyyət olmayanda ailədə heç nə harmoniya yarada bilmir. Eyni zamanda bura sosial-maddi çətinlikləri, kənar müdaxiləleri də əlavə etmək olar. Maddi problemlər qadını işləməyə vadar edir və beləcə ailədə əri ilə narazılıq yaranır. Ər evi tam təmin edə bilmədikdə daha da aqressivləşir, sanki öz qəzəbini ən yaxında olanlara tökür.

**Psixoloq Dəyanət Rzayev ölkədə zorlama faktlarının artması faktını dəyərləndirərkən öncə rəqəmlərə nəzər yetirməyi tövsiyə etdi. Dedi ki, ölkədə qadınların sayı azdır. 100 qadına 116 kişi düşür. Onun sözlərinə görə, UZİ çıxandan sonra abort hallarının da sayı artıb, oğlana meylli toplum olaraq qız uşaqlarının ana bətnindəcə məhvinə üstünlük verirlər:** "Amma sosial-psixoloji, profilaktik və gigiyenik səbəbləri də unutmaq olmaz. Sovet vaxtı hansısa bir uşaq pis davranışa malik idisə, orda polisdə xüsusi otaqlarda saxlayırdılar. Cinayət törədəndə isə uşaq koloniyalarında. İndi bunlar yoxdur, olsa da sayı azdır. Qadınlar bir zamanlar zorakılıqla üzləşəndə polisə müraciət etməyə qorxurdu ki, camaat nə deyər. Çünki şikayət etdiyi polis idarəsində də bu müraciətə belə cavab verilirdi ki, yaxşı qadına söz deməzlər, başına hansısa iş gətirməzlər. Problemi qadında görürdülər. Halbuki polisdə də çoxlu sayda qadınlar işləsəydi, duruma adekvat reaksiya verilərdi. Əgər ər arvadı zorlayırsa, bu da problemdir. Heç kəs deyə bilməz ki, əridirsə, bunu edə bilər".

## Dəyanət Rzayev: "Cəmiyyətdə kütləvi psixopatlaşma gedir"

**D.Rzayev həmçinin dedi ki, hazırda Azərbaycan cəmiyyətində kütləvi psixopatlaşma gedir. Onun sözlərinə görə, cinayət baş verməzdən əvvəl bunun qarşısını almaq lazımdır:** "O manyak bir nəfəri zorlayırsa, dərhal tapıb cəzalandırmaq lazımdır. Çünki belə olmadıqca o manyakların da əl-qolu açılır. Müraciət edənlər isə az olduğu üçün bu, tendensiya halını alır".

**D.Rzayevin sözlərinə görə, hazırda Azərbaycan cəmiyyətinin psixoloji, mənəvi, sosial rekonstruksiyaya ehtiyacı var. Məmurlar öz ciblərini güdürlər, insan münasibətlərində problemlər gündən-günə artır:** "Azərbaycan cəmiyyətində əsas prioritet çörək, yeməkdir. "Ərin səni yedirdir? Yedirdir. Döyür? Döymür. Bəs niyə ayrılırsan?" Boşanmaq istəyən qadına öncə bu sualları verirlər. Boşanmalar bir bəlaya çevrilib. Bütün xidmətlərdə - sahə həkimi, sosial müdafiə sistemində maarifləndirmə işləri aparılmalıdır. "Kef olsun, yemək olsun, bahalı maşın olsun" yanaşmasından qurtulmaq lazımdır. Bunlar olduqca cəmiyyətdə manyaklaşma gedir.

Bunun qarşısını almaq çox çətindir".



Dəyanət Rzayev

**Psixoloq narahatdır ki, bu gedişlə Azərbaycan Hindistana çevriləcək, qadınları yolda, avtobusda zorlayacaqlar. Ancaq bu halda nəsə ciddi tədbirlər görüləcək:** "Bu tendensiya bir müddət gedəcək, sonra azalacaq, əvəzində intiharlar çoxalacaq, sonra yenidən başqa bəlalar artacaq. Azərbaycana qidalar xaricdən gəlir. O qidaları yeyərkən onun tərkibindəki çiplər qan dövranı ilə beyinə oturur. Beyni tam başqa bir yerə istiqamətləndirir bu maddə. Son zamanlar ölkədə yol qəzalarının sayı artıb. Buna səbəb insanların psixoloji problemləri, özlərini, əsəblərini, avtomatik olaraq maşının sürətini nəzarət altına ala bilməmələridir".

Araşdırmalar sübut edir ki, KİV-də belə məlumatların çoxalması və çılpaq şəkildə təqdim edilməsi cəmiyyətdə zorakılığa meylləri artırmaqla yanaşı, oxucu və ya tamaşaçılarda müəyyən psixoloji xəstəliklər də yaradır. Bəzən avtomobil qəzasında insan vəfat edir, onun ölüm prosesini və ya cəsədini yaxın planda göstərirlər. Ona baxan insan psixi travma alır, müxtəlif fobiyalar (qorxular) yaranır. Məsələn, ölüm qorxusu, avtomobilə minmək, yola çıxmaq, televiziyaya baxmaq, xəbər oxumaq və sair yüzlərlə belə qorxular yarana bilər. Bu məqamlara diqqət etmək lazımdır.

Belə xəbərlərin çoxalması elə zorakılığın təbliği deməkdir. Buna şüuraltı infeksiya deyilir. İnsan zaman-zaman o yola getməyə başlayır. Zorakılıqlarla bağlı məlumatları mütəmadi yaymaqla əslində biz insanları həmin yola sürükləyirik. Bu zəhərlənmə isə günlərin birində mütləq öz acı fəsadlarını göstərir. Məsələn, rəsmi məlumatlara görə, son zamanlar Azərbaycanda ailədaxili münaqişələrin sayı artıb. Ağır cinayətlər də əsasən ailədaxili münaqişələr zamanı baş verir.

❑ Sevinc TELMANQIZI

# SOCAR-ın fəaliyyətsiz mətbuat katibi...




## Nizaməddin Quliyev ictimaiyyətə və mediaya saygısız yanaşmaqla təmsil etdiyi qurum haqda neqativ fikir formalaşdırır

**Hər bir dövlət qurumunun mətbuat xidməti və onun rəhbəri həmin təşkilatın və rəhbərliyin imicinin formalaşmasına bilavasitə təsir göstərir. Odur ki, mətbuat katibləri bir qayda olaraq aktiv olmalı və media ilə işləməyi bacaran şəxs olmalıdır. Təəssüf ki, hazırda bir sıra qurumların mətbuat xidmətlərinin rəhbərlərinin "fəaliyyəti" ancaq neqativlərə yol açır.**

Dövlət Neft Şirkətinin (SOCAR) mətbuat katibi Nizaməddin Quliyevin də passivliyi ARDNŞ rəhbərliyi barəsində neqativ məlumatların yayılmasına zəmin yaradır.

Dövlət strukturlarının nəzdində fəaliyyət göstərən mətbuat xidmətləri bir növ tabe olduğu qurumun siması hesab olunur. Başqa sözlə desək, işini günün tələbləri səviyyəsində qurmağa çalışan idarə, müəssisə və təşkilatların ictimaiyyətlə əlaqələri də adekvat işləyir, fəaliyyəti də mətbuata açıq olur. Lakin kütləvi informasiya vasitələrinin sorğularına məhəl belə qoymayan, onları cavablandırmağa "macal tapmayan" mətbuat xidmətləri də az deyil. Belə xidmətlərin passivliyi və qeyri-peşəkarlığı informasiya əldə edilməsi üçün edilən müraciətlərin cavablandırılmasında da özünü büruzə verir: "KİV haqqında" Qanunun tələbləri ya pozulur, ya da verilən suallar əhatəli şəkildə cavablandırılmır. Bu da bir yana, elə mühüm dövlət qurumları da var ki, onların ictimaiyyətlə əlaqələr qura bilməməsi nəinki cəmiyyətə, elə mətbuatın özünə də çox çətin başa gəlir.

Söhbətimizi elə bu əsnada, Dövlət Neft Şirkətinin ictimaiyyətlə əlaqələr və mətbuat xidmətinin fəaliyyətinə baxış üzərində qurmağa çalışacağıq. Dövlət Neft Şirkəti ölkənin zəngin tarixə malik ən nüfuzlu dövlət qurumlarından bəlkə də birincisidir. Təkcə onu söyləmək kifayətdir ki, dövlət büdcəsinin formalaşmasında ARDNŞ-in payı 60 faizə yaxındır. Dövlət Neft Fondunun və xarici neft şirkətlərinin dövlət büdcəsinə ödənişləri də nəzərə alınanda büdcənin formalaşmasında neft sektorunun payı təxminən 85-90%-ə çatır. Buna görə də Dövlət Neft Şirkətinin fəaliyyətinə ölkə ictimaiyyətinin marağı böyükdür. Şirkətdə gedən proseslərin maraqla izlənilməsinə də bu kontekstdən yanaşmalıyıq. Düşünürük ki, şirkət rəhbərliyi də bunu təbii qəbul etməli, fəaliyyətinin bu və ya digər istiqamətləri barədə kütləvi informasiya vasitələrinə gərəkli və yetərli informasiyanın çatdırılmasında maraqlı olmalıdır. Lakin bu vəzifəni həyata keçirməli olan ictimaiyyətlə əlaqələr və mətbuat xidmətinin fəaliyyəti demək olar ki, görünmür. Mətbuat xidmətinin rəhbəri Nizaməddin Quliyevin isə öz məhdud əhatə dairəsi var. Onun fikirləri ilə yalnız bir neçə qəzet və telekanalda tanış olmaq olar. Qalan hallarda mətbu orqanların suallarını Nizaməddin Quliyevin cavablandıracağına ümid etməyə dəyməz. Bu passivliyi saygısızlıq da adlandırmaq olar. Unutmaq lazım deyil ki, məhz mətbuat xidməti rəhbərinin passivliyi ARDNŞ rəhbərliyi barəsində neqativ məlumatların yayılmasına zəmin yaradır. Nizaməddin Quliyevin "bilmirəm", "eşitməmişəm" və "məlumatlı deyiləm" kimi məmursayağı maraqsız açıqlamalarına alışmış mətbuata o qalır ki, ARDNŞ-in rəhbərliyi ilə bağlı məlumatları ilkin mənbə ilə dəqiqləşdirmədən oxucunun ixtiyarına buraxsın. Təəssüf ki, ictimaiyyətlə daha çox məmur kimi davranan Nizaməddin Quliyevin özünü də mətbuata bağlı persona kimi dəyərləndirmək zorundayıq. Amma onun barəsində xəbər qaynaqlarından kifayət qədər məlumat əldə edə bilmədik. Lakin eşitdiyimizə görə, neft sahəsində mütəxəssis hesab edilir. Görünür, bu hal Nizaməddin Quliyevin mətbuatla əlaqələrini günün tələblərinə uyğun şəkildə formalaşdırmağa bəs eləmir. Nizaməddin müəllim bilməlidir ki, yeniləşmə ARDNŞ-in loqosunu mətbuata ingilis adıyla çıxarmaqla bitmir. O həm də rəhbərlik etdiyi mətbuat xidmətinin əməkdaşları ilə bərabər cəmiyyətə açıq olmalıdır. Mətbuat işçisini məmurdan fərqləndirən əsas cəhət də bax budur...

❑ Tofiq ƏHMƏDLİ

# YENİ MÜSAVAT

Son səhifə

N 79 (6107) 15 aprel 2015




## 1,5 milyon dollarlıq qəza

Çində 650 min dollarlıq "Lamborghini" markalı maşınla 900 min dollar dəyəri olan "Ferrari" markalı maşının toqquşması ölkədə qalmaqal yaranmasına səbəb olub. Maşınların sahibinin işsiz gənclər olması atalarının kimliyi haqda suallar yaradıb. Yüksək sürətlə tuneldə hərəkət edən maşınlar bir anda divara çırpılıblar.

Lamborghini yararsız hala düşüb, Ferrari isə ciddi şəkildə zədələnib. Sürücülərin hər ikisinin 20 yaşı olduğu və işsiz olduqları deyilir. Gənclərin hər ikisinin siyasətçi və ya biznesmen oğlu olduqları bildirilir.



## Eyni evdə 2 sevgilisi ilə yaşayır

Amerikanın Los-Ancles şəhərində yaşayan Adam Lyons adlı kişi bir evdə iki sevgilisi ilə birlikdə yaşayır. Onlar üçün ev işləri, uşaqların məsuliyyəti, digər işlər üç yerə bölünüb. Lyons, 26 yaşlı sevgilisi Brooke, 25 yaşlı digər sevgilisi Jane və iki uşaqları birlikdə yaşayırlar. Olduqca qəribə ailədə Adam Lyons əvvəlcə ilk arvadından olan oğlu ilə yaşayıb. Sonra onlara sevgilisi Brooke qatılıb. Daha sonra isə Jane gəlib və onun bir uşağı olub. Hazırda iki qardaş iki ana və bir ata ilə birlikdə yaşayır. Jane və Brooke birlikdə yaşamaqdan şikayət etmirlər. Lyonsun sözlərinə görə, onların ailə həyatı ətrafdan qəribə görünsə də onlar bir-birilərini çox sevirlər.

# Sosial çoban

İngiltərənin Lake District bölgəsində çobanlıq edən James Rebanksın "herdyshepherd1" adı ilə açdığı tvitter sosial şəbəkəsindəki hesab bütün dünyada məşhurlaşıb. Sosial mediada gündəlik həyatı haqqında məlumatlar paylaşan Rebanks 47 min təqibçiyə sahibdir. Nəsillikcə çobanlıq edərək yaşayan Rebankslar ailəsinin sonuncu nümayəndəsi bu işə yenilik gətirmək istəyib. Bu məqsədlə otlayan qoyunların, çoban itlərinin şəkillərini və videolarını paylaşır. Bir çox çətinliklərlə tək başına mübarizə aparan çoban sosial mediada qazandığı məşhurluqdan sonra kitab da yazır. O, çoban həyatı haqqında bildiyi hər şeyi kitabında yazmağı planlaşdırır.



# Xərçəng üçün şəxsi peyvənd

Amerikalı alimlər "şəxsi peyvənd"lər hazırlayıblar. "Science" jurnalında yayımlanan araşdırmaya görə, 3 nəfər üzərində yoxlanılan peyvəndlər xərçəngli hüceyrələrdəki genetik xəstəliklərin aradan qaldırılması üçün nəzərdə tutulub. "Neoantijen" adı verilən xəstəlik hüceyrələri kompüter proqramı ilə analiz edən araşdırmaçılar peyvənd üçün ən uyğun hədəfi seçiblər. Peyvəndlər 2013-cü ildən bəri dəri xərçəngindən əziyyət çəkən üç nəfərə vurulub. Peyvənd edilən xəstələrin üçünün də həyatı tamamən xilas olub. Peyvəndin nəticəsi tibb aləmində maraqla qarşılanıb. Mütəxəssislərin sözlərinə görə, peyvənd xəstələrin bədənində immuniteti qeyri-adi dərəcədə gücləndirib. Peyvəndin ağciyər, sinə və yumurtalıq xərçənginin müalicəsi üçün də istifadə edilməsi də nəzərdə tutulub. Şəxsi peyvəndlərin hazırlanma müddəti 3 aydır. Araşdırmaçılar bu müddətin qısaldılması üçün əllərindən gələni edirlər.





## Bu konfetlər ancaq qadınlar üçündür

Amerikalı bir qadın öz əhvalını yüksəltmək və səhhətini yaxşılaşdırmaq üçün yeni konfet resepti hazırlayıb. Tanya Qrin adlı qadının resepti bir neçə problemi həll edir. Belə ki, bu şirniyyatlar sayəsində qadınların şirniyyata olan meyli azalır, xoşagəlməz hissləri aradan qaldırır və bədən quruluşuna təsir etmir. Tanya qısa müddət ərzində "PMS Bites" şirkətini yaradıb və konfetin istehsalı üçün lazım olan vəsaiti toplayıb. O, cəmi 15 saat ərzində 5000 dollar yığıb. Bununla da konfetlərin istehsalına başlayıb. İndi "PMS Bites" 3 növ konfet istehsal edir. Tanya bunların adlarının qadınların xasiyyətlərinə uyğun olduğunu deyib. Şirniyyatlar "təmiz çılğınlıq", "kokos dəliliyi" və "qəzəbin bütün növləri" adlarla adlandırılıb. Konfetlərin hamısı bitki tərkibli təbii inqrediyentlərdən hazırlanıb.




**QOÇ** - Qarşınızda duran gündə Göy qübbəsi daha çox neytrallıq nümayiş etdirməyinizi tələb edir. Ciddi sövdələşmələri, riskli məsələləri (ələlxüsus pulla bağlı) təxirə salın.

**BUĞA**- Kifayət qədər uğurlu gündür. Hətta havaların dəyişkənliyi də ovqatınıza mənfi təsir göstərməyəcək. Məhəbbət amilinə daha çox diqqət yetirin, işgüzar sövdələşmələri sürətləndirin.

**ƏKİZLƏR** - Ulduzların düzümü daha çox qarşılıqlı münasibətlər zəminində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Bu yönümdə sevgi amilini daha çox qabardın. Axşamsa ehtiyatlı olun.

**XƏRÇƏNG** - Bir qədər mistik təqvimdir. Amma əminik ki, siz belə bir gündə falçı və ya cadugər yanına yox, müqəddəs ziyarətgahlara, ibadət yerlərinə baş çəkəcəksiniz. Pulla bağlı ehtiyatlı olun.

**ŞİR** - Yeni əlaqələr qurmaq, nəzərdə tutulan planların icrası üçün sövdələşmələrdə iştirak etmək baxımından çox səmərəli gündür. Səhhətinizlə bağlı problemləriniz isə tədricən qaydasına düşəcək.

**QIZ** - Həddindən ziyadə səmərəli bir gün yaşayacaqsınız. Qonşu və qohumlarla təmkinli və ədalətli davranın. Sevindirici xəbərlər, uğurlu hadisələr ovqatınızı yüksəldəcək.

**TƏRƏZİ** - Fəaliyyətlə bağlı uğurlarınız birə-beş qat arta bilər. Bunun üçün həmkarlarınızla əlaqələri dərinləşdirməli, yeni iş təkliflərinə başdansovdu yanaşmamalısınız. Risk etməkdən qorxmayın.

**ƏQRƏB** - Saat 15-ə qədər bütün vacib işlərinizi yekunlaşdırın. Çünki göstərilən müddətdə iştirakçısı olduğunuz proseslər xeyrinizə cərəyan edəcək. Sonrakı saatlarda neytrallıq nümayiş etdirin.

**OXATAN** - Astroloji enerji bütün gücü sevgiyə yönəltməyi tövsiyə edir. Çünki bu gün yeganə uğurunuz bu sahədə olacaq. Digər məsələlərdə isə qalmaqal gözlənilir. Vəzifəli adamlarla ehtiyatlı davranın.

**OĞLAQ** - Təxminən saat 13-dən etibarən ulduzlar qarşınızda bir neçə şans yaradacaq. Ələlxüsus da gələcək perspektivlər üçün bu fürsətin əhəmiyyəti böyük olacaq. O vaxta qədərsə gözüaçıq olun.

**SUTÖKƏN** - Səhhətinizlə bağlı problem yoxdursa, uğurlu gün hesab etmək olar. Üzərinizə düşən vəzifələrin məsuliyyətini dərk etsəniz, planlarınızın əksəriyyəti reallaşacaq. Tanrını yaddan çıxarmayın.

**BALIQLAR** - Gecə saat 01:11-dən mənfi enerjili Ay bürcünüzdə olsa da, nəzərdə tutduğunuz planlar müsbət həllinə yaxınlaşacaq. Dedi-qodudan uzaq olun. Məişət problemləri ni deyil, mənəvi duyğularınızı qabardın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Suya hoppandı, sümükləri qırıldı



Əllinci yaş gününü 50 metr yüksəklikdən suya hoppanaraq qeyd etmək istəyən finlandiyalı üzgüçü həyatının ən böyük səhvini edib. Matti Myllymaki suya yanlış düşdüyü üçün həm 12 sümüyü qırıb, həm də qaraciyəri partlayıb. Suya ayaq üstə düşməyə çalışan üzgüçü havada tarazlığını itirdiyi üçün yanı üstə düşüb. Suya düşdüyü anda huşunu itirən üzgüçü səhiyyə işçiləri tərəfindən sudan çıxarılıb. Qorxu dolu anlar kameralarla çəkilib.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300